SOSİAL
TƏDQİQATLAR
MƏRKƏZİ

# AZƏRBAYCANDA MÖVCUD AİLƏ MÜNASİBƏTLƏRİ:

# SOSİAL-PSİXOLOJİ TƏHLİL

**ata** **ana** nənə
baba sevgi **ailə** **övlad**
**qız** oğlan sağlıq xoşbəxtlik
qohum *tərbiyə* **bacı** yaşam
qadın kişi hüquq tərəqqi *əxlaq*
**evlilik** gender **güvən** bağlılıq
dəyərlər ər bərabərliyi inkişaf analıq
*uşaq* nənə **hörmət** həyat dayaq **körpə** vaxt
**atalıq** ana **AZƏRBAYCAN** yoldaşı dayə din
nəzarət *iş* mədəniyyət inanc **ata** arzu **dayı** **təhsil**
**qardaş** əlaqə *xala* bibi **nəsil** vaxt keçirmək anlam *qazanc*
inam dəyər vermək çətinlik **öhdəlik** *qonşu* əhatə mühit azad
çevrə **ilə övlad qız** oğlan sağlıq xoşbəxtlik kredit
borc qohum *tərbiyə* **bacı** yaşam qadın kişi *hüquq*
tərəqqi *əxlaq* **evlilik** **güvən** bağlılıq and
dəyərlər ipoteka pul inkişaf analıq *sevgi*
**kiçik dövlət** maraq ailə büdcəsi yaşayış
asudə *vaxt* xəyanət **pandemiya** qapanma
zərər **dost** qısqanclıq ər-arvad müqavilə
*ailə məsuliyyəti* uşaq qarşılıq **sosial** insan
tanışlıq əlaqə kişi qadın dayaq yaşam

## TƏDQİQAT ÜZRƏ TƏRƏFDAŞLAR:

## AZƏRBAYCAN RESPUBLİKASININ AİLƏ, QADIN VƏ UŞAQ PROBLEMLƏRİ ÜZRƏ DÖVLƏT KOMİTƏSİ

Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi (AQUPDK) ailə, qadın və uşaq problemləri ilə iş sahəsində dövlət siyasətini və tənzimlənməsini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır. Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 6 fevral tarixli Fərmanı ilə yaradılmış Komitə 1998-ci ildən etibarən qadın problemləri ilə iş sahəsində fəaliyyət göstərmiş başqa bir dövlət orqanını - Qadın Problemləri üzrə Dövlət Komitəsini əvəz etmişdir. “Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında” Konvensiyanın (CEDAW) yerinə yetirilməsi ilə yanaşı AQUPDK qadın hüquqları və səlahiyyətlərinin genişləndirilməsinə aid bütün aspektlər üzrə dövlət siyasətinin işlənib hazırlanması və həyata keçirilməsinə məsuliyyət daşıyan yeganə milli mexanizm hesab olunur.

## SOSİAL TƏDQİQATLAR MƏRKƏZİ

Sosial Tədqiqatlar Mərkəzi (STM) Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 8 fevral tarixli 525 nömrəli Fərmanı ilə yaradılmışdır. STM ictimai münasibətlərin inkişaf dinamikasını sistemli təhlil edən, bu sahədə mövcud tendensiyaları müəyyənləşdirən və dəyişiklikləri proqnozlaşdıran, həmin dəyişikliklərin cəmiyyətə mümkün təsirlərini araşdıran, müasir informasiya texnologiyaları və elmi yanaşmalar tətbiq edilməklə ictimai fikrin öyrənilməsini və sosial tədqiqatlar aparılmasını təmin edən, həyata keçirdiyi elmi-analitik təhlilin nəticələrini dövlət orqanlarına təqdim edən publik hüquqi şəxsdir.

SOSİAL
TƏDQİQATLAR
MƏRKƏZİ

# AZƏRBAYCANDA MÖVCUD AİLƏ MÜNASİBƏTLƏRİ: SOSİAL-PSİXOLOJİ TƏHLİL

*İctimai rəy sorğusu-sosioloji tədqiqatın nəticələri əsasında hazırlanmış*

## ANALİTİK HESABAT

**Tədqiqat qrupu:**
Sosial Tədqiqatlar Mərkəzinin
İctimai rəyin öyrənilməsi departamenti
Daxili siyasətin təhlili departamenti

Bakı - 2021

**Analitik hesabatın tədqiqat qrupunun üzvləri:**

Tahirə Allahyarova,
*Daxili siyasətin təhlili departamentinin müdiri, professor*

Ayşəm Balayeva,
*İctimai rəyin öyrənilməsi departamentinin müdiri*

Aqşin Məmmədov
*Daxili siyasətin təhlili departamentinin baş məsləhətçisi*

İnqilab Şahbazov,
*İctimai rəyin öyrənilməsi departamentinin baş məsləhətçisi*

Zaur Əfəndiyev,
*İctimai rəyin öyrənilməsi departamentinin aparıcı məsləhətçisi*

**Qrafik dizaynerlər:**
Qurban Cəlilov
Babək Cəfər

**Ünvan:**
Azərbaycan Respublikası, AZ 1006, Bakı şəhəri,
Yasamal rayonu, İsmayıl bəy Qutqaşınlı küçəsi, 18.

**Telefon:** (+994 12) 510-70-78
(+994 12) 510-23-75
(+994 12) 510-70-69

**E-poçt:** info@stm.az
**İnternet ünvanı:** www.stm.az

Çapa imzalanıb:
Fiziki çap vərəqi:
Sifariş:
Tiraj:

# XÜLASƏ

Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşəbbüsü ilə Sosial Tədqiqatlar Mərkəzi tərəfindən həyata keçirilən bu sosioloji sorğu layihəsi son illərdə Azərbaycan ailəsinin, ailədaxili münasibətlərin, ailə dəyərlərinin dinamikası və transformasiyasının qarşılıqlı təsir və əlaqədə araşdırılması, ailə məsələlərində ümumi mənzərənin sistemli təqdimi aspektində aparılan tədqiqatlar sırasında ilklərdən hesab edilə bilər.

Təqdim edilən analitik hesabatda ailənin sosioloji tədqiqi aspektində müasir yanaşmalar tətbiq olunmaqla Azərbaycan cəmiyyətində ailə institutu və ailə dəyərlərinin, ümumilikdə ailə sahəsində ictimai rəyin reallıqla bağlı təsəvvürlərinin, gözləntilərinin, ailənin inkişaf meyillərinin mövcud vəziyyəti və perspektivlərinin öyrənilməsinin nəticələri əksini tapmışdır.

Tədqiqatda ailənin Azərbaycan dövlətçiliyi və sosial sistemində yeri və statusu, ailədaxili münasibətlərin transformasiya və dinamikası, tendensiyaları və perspektivləri, cəmiyyətimizdə baş verən proseslərlə qarşılıqlı əlaqəsinə ictimai rəyin münasibəti araşdırılır. Nəsillərarası dəyərlər sistemində baş verən proseslərə müxtəlif baxışlar dəyərləndirilir.

Ölkəmizdə ailələrin üzləşdiyi problemlər, onun səbəbləri, aradan qaldırılması yolları ətrafında respondentlərin cavablarının statistik-kəmiyyət, eləcə də keyfiyyət əsaslı təhlili aparılmaqla nəticələr ümumiləşdirilir. Hazırda ailədaxili münasibətlərin çoxşaxəli - sosial-iqtisadi, sosial-məişət, sosial-psixoloji, mədəni-mənəvi və s. kompleks amillərin təsirinə məruz qalması, mövcud vəziyyətdə müasir ailənin dayanıqlılığının möhkəmləndirilməsi yönündə dövlətin ailə siyasətinin cari və perspektiv vəzifələri ilə bağlı tədqiqatın qənaətləri təqdim edilir.

**© Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, 2021**
**© Sosial Tədqiqatlar Mərkəzi, 2021**

*“Azərbaycan o ölkədir ki, öz inkişafını, öz gələcəyini milli köklər üzərində qurubdur. Ənənəvi dəyərlər bizim üçün ən böyük sərvətdir. Çünki biz görürük ki, dünyanın müxtəlif yerlərində ənənəvi dəyərlər gözdən salınır, bizim üçün yad olan, milli təfəkkürümüzə uyğun olmayan yeni “dəyərlər” aşılanır. Biz özümüzü və xüsusilə gənc nəslimizi bu yad və bəd təsirdən qorumalıyıq.*

*Ona görə hesab edirəm ki, ənənəvi dəyərlərin, ailə dəyərlərinin təbliğ edilməsi hamımızın işi olmalıdır.*

*Xalqımızın yaşaması üçün, öz mənliyini, qürurunu qoruması üçün ailə dəyərləri, milli dəyərlər əvəzolunmaz rol oynamışdır".*

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
**/Dünya Dini Liderlərinin II Sammitinin açılış mərasimindəki nitqindən/**

# MÜNDƏRİCAT

**GİRİŞ.** Problemin təsviri.....7

**I HİSSƏ. TƏDQİQATIN MƏQSƏDİ VƏ VƏZİFƏLƏRİ**.....13

1.1.Tədqiqatın metodoloji prinsipləri. .....14

**II HİSSƏ. İCTİMAİ RƏY SORĞUSUNUN ƏSAS NƏTİCƏLƏRİNİN TƏHLİLİ**.....17

I Bölmə. Ailə institutu, ailə və nikah münasibətlərinin cəmiyyətdə yeri.....17

II Bölmə. Evliliyə, övladlara və ailə üzvlərinə münasibət.....22

III Bölmə. Məişət fəaliyyəti. Vəzifələrin bölgüsü və qərar verməyə münasibət.....25

IV Bölmə. Ailənin iqtisadi qayğıları və problemləri.....28

V Bölmə. Ailə həyatının sosial-mədəni fəaliyyət istiqaməti.....34

VI Bölmə. Ailənin potensial problem və stress mənbələri.....36

VII Bölmə. Boşanmalara münasibət.....38

VIII Bölmə. Azərbaycanda ailə, qadın və uşaq münasibətlərini tənzimləyən qurumlarla bağlı məlumatlılıq və müraciət.....44

IX Bölmə. Ailədə valideyn-övlad münasibətləri.....46

**III HİSSƏ. KEYFİYYƏT ƏSASLI TƏHLİL. Ekspert sorğusu - dərinləşdirilmiş müsahibələrin nəticələri**.....49

**TƏDQİQATIN YEKUNU. NƏTİCƏLƏR**.....55

**TÖVSİYƏLƏR**.....59

**İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT VƏ İSTİNADLAR**.....64

# İXTİSARLAR

AQUPDK – Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi

BAİ – Beynəlxalq Ailə İli

BAİF – Beynəlxalq Ailənin İnkişafı Federasiyası

BƏT – Beynəlxalq Əmək Təşkilatı

BMİ – beynəlxalq maliyyə institutları

BMT – Birləşmiş Millətlər Təşkilatı

BMTİP – Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı

CEDAW – "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğvi haqqında" Konvensiya

DSK – Dövlət Statistika Komitəsi

DİM – Dayanıqlı İnkişaf Məqsədləri

DİN – Daxili İşlər Nazirliyi

ƏƏSMN – Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi

ƏN – Ədliyyə Nazirliyi

ƏRM – əsas respondentlərlə müsahibələr

FQM – fokus qrup müzakirələri

IYF + 30 – “Beynəlxalq Ailə İli” nin 30-cu ildönümü

QHT – Qeyri-hökumət təşkilatıları

QRM – Qadın Resurs Mərkəzi

STM – Sosial Tədqiqatlar Mərkəzi

SN – Səhiyyə Nazirliyi

TN – Təhsil Nazirliyi

UNFPA – Birləşmiş Millətlər Təşkilatının Əhali Fondu

UADM – Uşaq və Ailələrə Dəstək Mərkəzi

ÜDM – ümumi daxili məhsul

# Giriş

## Problemin təsviri

***"Dünya sürətlə dəyişir. Biz də dəyişirik. Cəmiyyətimizdə qadın və kişilər arasındakı münasibətlər necədir? Onlara hansı sosial münasibətlər və qaydalar təsir göstərir? Bu əlaqənin tarixi qaynaqları və gələcək perspektivləri necədir? Qadın və kişiyə dair ənənə və sosial normalarda kök salmış, onların davranışını müəyyən edən stereotiplər sosial dəyişikliklərin sürətinə necə uyğunlaşdırıla bilər?***

***Gələcəyə özümüzlə ən yaxşı nəyi aparacağıq və keçmiş üçün ən yaxşı nəyi qoyacağıq?"***[1]

**Mehriban ƏLİYEVA**
**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti**

Hər bir dövlət gələcəyi üçün fiziki və mənəvi cəhətdən sağlam nəsil böyütməyə qadir, mənəvi təməlləri sarsılmaz olan ailə institutunun formalaşmasında maraqlıdır. Güclü ailə həm də güclü dövlət deməkdir.

Azərbaycan dövlətçiliyini yalnız iqtisadi, siyasi, hərbi, hüquqi və s. təməllər üzərində deyil, həm də ilk növbədə "kiçik dövlət" adlandırılan güclü mənəvi təməllər - ailə üzərində qurur. Müstəqilliyinin otuzuncu ildönümündə Azərbaycan yeni tarixi mərhələyə - Qarabağın azad edilməsi ilə başlayan Zəfər salnaməsinin yazıldığı dövrə qədəm qoyub. Ölkəmizdə 1 milyondan artıq insanla bağlı işlədilən "qaçqın və məcburi köçkün ailəsi" ifadəsi tarixə qovuşub. Azərbaycanda "Böyük Qayıdış" strategiyasının həyata keçirilməsi ilə həmin ailələr doğma torpaqlarına qovuşacaq. Beləliklə, xalqımızın ailə sahəsində onilliklərlə mövcud olan ümummilli problemi həll edilib və milyonları əhatə edən qaçqın ailələr bundan sonrakı taleyinə ancaq nikbinliklə baxır.

Bununla yanaşı, yaşadığımız yüzilliyin xüsusiyyətlərindən irəli gələn, bəşər həyatında mürəkkəbliyi, çoxşaxəliyi və planetar miqyası baxımından ortaya çıxan yeni çağırışların gündən-günə çoxalması ailə institutunda da əks-sədasını verir.

XXI əsrin 21-ci ilində dünyada yaşanan qlobal miqyaslı problemlərin sırası genişdir. Münaqişə və gərginlik ocaqları, qlobal istiləşmə, pandemiya, beynəlxalq miqrasiya və s. problemlərin arasında, ümumən qəbul edilmiş qənaətə görə, dərin böhrana qərq olan sahələrdən biri, hətta birincisi ailə institutudur. Bu vəziyyət "Ailə kiçik dövlətdir - dövlət böyük ailədir" deyimini həmişə olduğundan daha aktual edib.

Ailə cəmiyyət sisteminin onunla birlikdə dəyişikliklərə uğrayan, adaptasiya edən altsistemidir. Eyni zamanda, ailə fərdin sosial, dini, mənəvi və dünyagörüşü münasibətlərinin formalaşmasına müstəsna təsir göstərməsi baxımından cəmiyyətin nisbi müstəqil özəyi-təməlidir.

Ailə insana həyatının tarixən formalaşan, üzvlərinin evlilik və ya qohumluq əlaqələri, həyat birliyi, qarşılıqlı mənəvi məsuliyyət və s. bağlarla yaxın olduğu kiçik sosial qrupdur. Ailə mənşəyi etibarilə siniflərdən, millətlərdən və dövlətlərdən daha erkən - ibtidai dövrlərdə də meydana gəlib. İnsanlara həyat və dünya, dəyərlər haqqında ilk təməl bilgiləri verən mikrososium ailədir. Övladlar ailədə sosial münasibətlərlə bağlı bütün həyatı boyu onlarda dərin iz buraxan praktik bacarıqlarını alır. Ailə insanın daxili aləmini, psixoloji dünyasını, bənzərsiz fərdiyyət cizgilərini müəyyən edir.

Müasir dövlət fasiləsiz olaraq dəyişən cəmiyyətdə daim yeniləşən, yaranan təhdidlərə çevik cavab verə bilən ailə siyasətini həyata keçirmək kimi çağırışla üz-üzədir.

Hazırda bütün dünyada ənənəvi ailə modeli böhran yaşayır. Böhranın mövcudluğu fikri qeyd-şərtsiz qəbul edilir. Bu baxımdan, müxtəlif cəmiyyətlərdə böhranı doğuran səbəblər, ailə dəyərlərinin tənəzzülü prosesləri hansı mərhələdədir, nə dərəcədə dərindir, çıxış yolları haradadır və s. suallara cavab axtarışları intensiv şəkil alıb.

Problemin mürəkkəbliyi həm də

[1] Mehriban Əliyeva. Ön söz. Azərbaycanın İnsan İnkişafı Hesabatı.// Azerbaijan Human Development Report. 2007, p. 4 // http://hdr.undp.org/sites/default/files/nhdr2007gendereng.pdf

onunla bağlıdır ki, hazırda ailə institutu paradoksal olaraq cəmiyyətin demək olar ki, bütün vacib alt sistemləri - mədəniyyət, informasiya, iqtisadiyyat, siyasət, səhiyyə, təhsil və s. tərəfindən total təsirə və böyük təzyiqlərə məruz qalır.

Eyni zamanda, birmənalı olan həqiqət ondan ibarətdir ki, başqa sahələrdə - iqtisadi, hərbi-siyasi və s. böhranların müəyyən dövrdən sonra aradan qaldırılması mümkündür. Məsələn, otuz il sonra Qarabağ torpaqlarının işğaldan azad edilməsi mümkün oldu. Lakin ailə elə bir sosial fenomen, institutdur ki, ailə münasibətləri, dəyərləri iflas edərsə, artıq tənəzzül geridönməz prosesə çevrilir və onun bərpası praktiki olaraq heç vaxt mümkün olmur.

Ailə hazırda nəinki hər bir dövlət, həmçinin dünya birliyi tərəfindən və BMT-nin rəsmi sənədlərində təsdiqlənən ümumbəşəri dəyərlər sırasındadır. Müasir ailələr çoxsaylı qlobal və lokal dəyişiklik və problemlərlə üz-üzə qaldığı üçün dövlət və cəmiyyət tərəfindən ailəyə daha çox diqqət və dəstəyin zəruriliyi gündəmə gəlib. Bu və digər səbəblərdən dünyada ailə sahəsində baş verən mürəkkəb proseslər ailə tədqiqatlarına görünməmiş təkan verib, böhrandan çıxış yollarının, dövlətin optimal ailə siyasətinin axtarışını gündəmə gətirib.

Ailənin yaranma tarixinin mərhələləri bəşəriyyətin ictimai inkişaf və təkamül tarixinin mərhələləridir. Cəmiyyətin nisbətən dayanıqlı və mühafizəkar elementi olmasına baxmayaraq, ailə də cəmiyyətlə birlikdə labüd olaraq dəyişikliyə uğrayır.

Çoxsaylı təriflərin verildiyi ailə hər bir xalqın mədəniyyətinin təməl dəyərlərinin varisliyini təmin edən, hər yeni gələn nəslin böyüdüyü, vətəndaş kimi sosiallaşdığı bənzərsiz sosial institutdur. Bu qisimdə ailə fərdlə cəmiyyət arasında vasitəçi olmaqla sosial proseslərə təsir edən çox ciddi amildir. Ailənin potensialı müasir cəmiyyətdə ciddi dəyişikliklərə məruz qalan əsas funksiyalarının yerinə yetirməsi ilə həyata keçirilir. Əgər bu funksiyaları ailə artıq yerinə yetirə bilmirsə, deməli, dövlətin varlığı ən yaxın gələcəkdə bilavasitə təhlükəyə məruz qala bilər.

Ailə və dövlətin ayrılmaz, sıx bağlarla birləşməsi hələ qədim sivilizasiyalarda, müxtəlif ideyalarda əksini tapıb. İstənilən tarixi mərhələdə cəmiyyətdə baş verən bütün dəyişikliklər ailənin nümunəsində bir damla suda olduğu kimi əksini tapan reallıqdır. Fransız yazıçısı Viktor Hüqoya görə, ailə cəmiyyətdə baş verən münasibətlərin əks olunduğu kristaldır. Alman sosioloqu Alfred Adler isə qeyd edib ki, ailə taleyindən bütün bəşər cəmiyyətinin təhlükəsizliyinin asılı olduğu “miniatür cəmiyyətdir”. Dövlətin təməlini sağlam ailə, sağlam nəsil, sağlam xalq/millət təşkil edir.

Ümummilli lider, Azərbaycan xalqının ailə örnəyi, etalon nümunəsini yaradan Heydər Əliyev ailənin cəmiyyətdəki rolunu xüsusi olaraq vurğulayırdı: **“Ailə dəyərləri, ailə ənənələri, milli-mənəvi dəyərlərimizə sədaqət, uşaqların müasir səviyyədə tərbiyəsi mühüm əhəmiyyət kəsb edir”.**

Mövcud qənaətə görə, müasir ailə ənənəvi ailədən fərqli olaraq, sosial inqilab proseslərinin nəticəsi olmaqla paralel şəkildə, həm də fasiləsiz təsir və təzyiqlərə məruz qalır. Bununla yanaşı, günümüzdə də ailə ən vacib sosial institut olaraq qalmaqda davam edir. Əsrlər boyu mədəniyyət, dünyagörüşü, dəyər istiqamətləri, ər-arvad münasibətləri, qadınların mövqeyi, valideyn-övlad münasibətləri dəyişikliyə uğrasa da, ailə cəmiyyətin təməlini təşkil edib.

Belə vəziyyətdə ailə institutu qərq olduğu “turbulent böhran zolağından” çıxmağa, özünün təbii missiyası və taleyini reallaşdırmaq üçün çətinlikləri kortəbii, spontan dəf etməyə cəhd edir. Müasir reallığın qeyri-müəyyənliyi şəraitində ailə özünü qeyri-müəyyənliyə birtəhər uyğunlaşdırmağa çalışır.

Bu proseslər familistik tədqiqatlarda hətta “ailənin öz taleyini-müqəddəratını müəyyən etməsi” adlandırılır. Müasir ailənin “öz müqəddəratını təyin etməsi” ailə üzvlərinin müstəqil qərar verməsində ifadə olunur.

XXI əsrdə Azərbaycan ailəsi yeni minillikdə bəşər cəmiyyətinin ən fundamental hərəkətverici qüvvəsinin, elmi-informasiya inqilabının mühərriki hesab edilən, zamanımızın ən böyük sərvəti/statusu olan dəyərin - insan kapitalının formalaşdırıldığı strateji mühitdir.

Sürətli templərlə dəyişən müasir cəmiyyətdə Azərbaycan ailəsi bir tərəfdən cəmiyyətdə dayanıqlı, tarixi zamanın sınağından çıxmış köklü dəyərləri və ənənələri, norma və idealları, təsəvvür və münasibətləri nəsildən-nəslə ötürmək imkanını qoruyub saxlayır. Digər tərəfdən, qloballaşan, sərhədləri davamlı olaraq "şəffaflaşan", internet məkanında ümumiyyətlə sərhədlərin mövcud olmadığı radikal dəyişikliklərin əhatəsindədir. Belə şəraitdə ailə təcrid edilmiş, yaxud tam olaraq sabitliyin "adası" qismində, problemsiz mövcud ola bilmir. Beləliklə, ənənəvi ailə modeli çoxşaxəli təsirlərə, obyektiv, xüsusilə də daha çox subyektiv - qlobal mərkəzlərdən yönəldilən manipulyasiya siyasətinin hədəfinə çevrilir.

Dövlət müstəqilliyinin bərpa edilməsi ilə Azərbaycan cəmiyyətinin qədəm qoyduğu tamamilə yeni siyasi quruluş, onun sosial strukturunda, sosial münasibətlərində dəyişikliklərin baş verməsinə, tamamilə yeni sosial münasibətlərin formalaşmasına və inkişafına təkan verdi. Cəmiyyətin bütün sosial qurumlarında baş verən bu proseslərin ailə institutuna, ailə dəyərlərinə, bütövlükdə sosiallaşma institutları adlanan, gənc nəslin dünyaya gəlməsi və yetişdirilməsi ilə bağlı olan bütün strateji sistemə nüfuz etdi. Dövlətin sosial siyasət kursunun formalaşması, yeni institutların yaradılması və təkmilləşdirilməsi başlanğıcını götürdü.

Bununla yanaşı, müstəqillikdən ötən 30 ildə xalqımızın ən vacib mənəvi və əxlaqi milli dəyəri və sərvəti olan Azərbaycan ailəsi nəinki ən etibarlı ənənəvi sosiallaşma institutu, həm də son illərə qədər dövlətin inkişafını təmin edən təməl sosial institutlardan biri olaraq mövcud olub.

Müasir Azərbaycan cəmiyyətində də ailədaxili münasibətlər, ailə dəyərləri təsəvvürləri dəyişiklikliyə uğrayır, bir sıra institusional funksiya və xüsusiyyətlərin itirilməsi baş verir. Bu dəyişikliklərin məzmunu nədən ibarətdir?

Əvvəla insanların şəxsi - karyera, iqtisadi və s. yönlü inkişaf və maraqlarını ailə həyat tərzi ilə müqayisədə üstün tutması tendensiyaya çevrilib. Ailə davranışının, həyat tərzinin fərdi-müstəqil tənzimləmə səylərindən, kollektiv-normativ tənzimləmə meyarlarından önə çıxması aşkar reallıqdır.

Ailənin istehlakçı-subyekt xüsusiyyəti getdikcə daha çox artmaqdadır ki, bunun nəticəsində kişi və qadınların ailədə rolları da dəyişib. Qloballaşma və informasiya sivilizasiyasının formalaşması ailənin coğrafi və sosial planda daha çevik-mobil bir institut olmasını şərtləndirib.

XXI əsrin əvvəllərinə qədər ailə institutu inkişafın bir neçə - patriarxal və ya ənənəvi, uşaq mərkəzli və ya müasir (modern) mərhələlərindən keçib, hazırda postmodern, eyni zamanda natamam və nikahdankənar çoxsaylı alternativ ailə-nikah modelinə doğru yön alıb.

Hazırda kişi və qadınların ailə dəyərləri və ailənin strukturu, funksiyaları və s. ilə bağlı dünyagörüşünün dərin transformasiyası baş verir. Bu da müasir ailənin mənəvi təməllərində və potensialında dərin böhranla müşayiət olunan dəyişikliklərdə özünü büruzə verir.

Hazırda ölkəmizdə ailə münasibətlərinin dayanıqlılığına təsir göstərən vacib amillər sırasında aşağıdakılar qeyd edilə bilər:

- Dəyərlər sisteminin qərbləşməsi, neoliberal Qərb dəyərlərinin dünyaya aqressiv təbliği və mədəni hegemonluq, mədəni imperializm geosiyasəti vasitəsilə yayılması;
- İqtisadi ukladın dəyişməsi, informasiya iqtisadiyyatının və rəqəmsal sivilizasiyanın yaranmasının ailə modelinə təsiri;
- Qlobal internet məkanında mənəvi-əxlaqi nihilizmin, seksual azadlığın geniş yayılması;
- Fərdiyyətçilik dəyərlərinin kollektiv-ailə dəyərlərini üstələməsi;
- Gender asimmetriyası; həyatın müxtəlif sahələrində hər iki cinsin sosial və mədəni rollarının təbii təyinatı və sosial imkanlarına rəğmən qeyri-mütənasib təmsil olunması;
- Qadınlar və kişilər arasında sosial rolların yenidən bölüşdürülməsi yönündə ifrat ideologiyalı sosial hərəkatların səfərbərliyi;
- Ailənin - tarixən formalaşan, cəmiyyətin bütövlüyünü təşkil edən "nikah, cinsi və reproduktiv davranış üçlüyünün" parçalanması dövlətin ailənin

sabitliyi, demoqrafiya və nəsil artımı sahəsində tənzimləyici mexanizmlərini məhv edir;

- Ailə strategiyasında fərdi/şəxsi seçimlərin üstün, hakim vəziyyətə gəlməsi, sosial məzmundan nəinki uzaqlaşması, ifrat müstəqillik məkanı hesab edilməsi ən narahatedici amillərdəndir;
- Nikahaqədərki münasibətlərin, kontrasepsiya və abortun, boşanmaların, nikahdankənar analığın, radikal feminizmin, eynicinsli nikahların və s. alternativ birgəlik modellərinin aqressiv təbliği, əks tədbirlərin olmaması, yaxud lazımi miqyas və intensivliyinin təmin edilməməsi və s. ailənin tənəzzül proseslərini daha da dərinləşdirir;
- Ailələrdə cütlüklərin öz şəxsi uğurlarına üstünlük verməsi şəxsiyyət-cəmiyyət münasibətlərində ailənin fundamental vasitəçi missiyasını zəiflədir, perspektivdə heçə endirməklə ailədənkənar-antiailə dəyərlərinin yayılmasını şərtəndirir. Ailə həyat tərzi dövlət və cəmiyyətin təməl nüvəsi olmaq funksiyasından kənarlaşır;[2]
- Müasir cəmiyyətdə “gənclik kultu”, başqa sözlə, "həmişəcavanlıq kultu"-mifi adlanan tendensiya da xüsusi qeyd edilməlidir. Sosioloqların "kütləvi cəmiyyət" adlandırdığı müasir toplumda insana fərdiyyətçiliyi ilə yanaşı, üzərinə məsuliyyət götürməmək cəhdi, eqoistlik, hər zaman gənc qalmaq səyləri səciyyəvidir. İnsanlar mümkün və ya mümkünsüz olan hər vasitə ilə gənclik dövrünü uzatmağa çalışırlar. Bu meylləri bazar iqtisadiyyatının işçi qüvvəsi tələbləri də digər tərəfdən körükləyir. Əvvəllər rast gəlinməyən fitness klubları, müxtəlif diyet proqramları, plastik cərrahiyyə metodları görünməmiş dərəcədə populyarlaşıb;
- Medianın davamlı olaraq "əbədi gənc" imicini təbliğ etməsi, əvvəlcə "özü üçün yaşamaq", bundan sonra ailə qurmaq, evlilikdən daha çox müxtəlif əyləncələrə, yeni hisslər yaşamağa meyillilik üstünlük təşkil edir;[3]
- Ailə tədqiqatları-familistika elmində ailənin böhran yaşamasının səbəbləri ilə bağlı yayılmış qənaətlərdən biri də qeyd edilən radikal sosial - gender və anarxo-feminist hərəkatların genişlənməsidir.[4] Bu hərəkatlar ailələrdə uşaqların tərbiyəsi ilə dövlətin məşğul olmasını, yaxud ümumiyyətlə uşaqların olmaması, analığın hər bir qadına xas olan mütləq missiya olmadığını, patriarxal üsuli-idarənin, ənənəvi ailə modelinin qadın üzərində hakimiyyətini təmin etmək üçün yaradıldığını və s. təbliğ etməklə ailə dəyərlərinin təhrif edilməsi və sıradan çıxarılmasında xüsusi və mütəşəkkil təşkil edilmiş qlobal miqyaslı fəaliyyət sərgiləyir;
- Ailə modelinin klassik-ənənəvi formasını əvəzləməyə iddialı olan alternativ ailə modellərinin formalaşmasını aqressiv şəkildə təbliğ edən digər tendensiya - cinsi azlıqların, LGBTİ hərəkatının miqyaslı təbliğatı getdikcə genişlənir. Eynicinsli nikahlar, bəzi ölkələrdə rəsmi sənədlərdən cins, yaxud ata, ana sözlərinin əksini tapmasının qadağan edilməsi tələblərinə belə nail olan qlobal LGBTİ lobbiçilik hərəkatı mövcud ailə dəyərlərinə vurulan ən böyük zərbələrdən sayılır. Xüsusilə Qərb ölkələrindən yönəldilən mərkəzlər bu sahəyə milyonlarla maliyyə ayırır, xüsusi layihələr həyata keçirirlər;
- Bəzi tədqiqatçılara görə, gender bərabərliyi və feminist hərəkatının bərabərlik uğrunda mübarizəsi kişilər tərəfindən bəhanə kimi sui-istifadə edilib. Nəticədə onlar ənənəvi funksiya və vəzifələrindən - ailəyə iqtisadi dəstəyindən, məsuliyyətdən, cinslərarası münasibətlərdə sədaqətdən, emosional bağlılıqdan azad olmaq üçün qadın azadlıqlarını fürsət kimi görüblər. İkinci qisim müəlliflər böhranı əsasən iqtisadi amillərlə bağlayırlar;
- Hesab edilir ki, müasir ailədə “ömürlük nikah” təsəvvürlərinin yerini şəxsi uğurlar və peşəkarlıq müstəvisində nailiyyətlər tamamilə əvəzləyə bilər.

Ailə modelində sadalanan böhran səbəblərinin doğurduğu dəyişikliklərin mənfi məzmunlu nəticələrinə dair ailə tədqiqatlarında aşağıdakı tendensiyalar qeyd edilir:

- Valideyn olmaqdan şüurlu surətdə imtina edən, subaylığı üstün tutan kişi və qadınların sayının artması;
- "Uşaqsız ailə" modelini şüurlu surətdə seçim edən uşaqsız ailələrin sayının artması;
- Nikah sayının azalması və boşanmaların sayının davamlı yüksələn xətt üzrə artım dinamikası;

[2] Кузьменко Т. Прогноз семейно-демографической ситуации // Вестник Московского университета. Сер. 18. «Социология и политология», 2008, № 2, с.133-145.

[3] Мустаева Ф. Социальные проблемы современной семьи // Социологические исследования, 2009, №7, с. 109-113

[4] Антонов А.И., Сорокин С.А. Судьба семьи в XX1 веке. – М.: «Грааль», 2000; Szinovacz, M. (1984). Changing family roles and interactions. In M. E. Szinovacz (Ed.), Women and the family: Two decades of change. Haworth Press, 1984, p. 187; Williams. J. (2000). Unbending gender: why family and work conflict and what to do about it. New York: Oxford University Press, 251 p.

- Nikah və ailə institutunun bütün formaları avtonom-muxtar statusa doğru istiqamətlənib. Alternativ nikah modelləri ortaya çıxıb, sürətlə yayılır;
- Ənənəvi ailədən nuklear ailəyə keçid; Nuklear ailə valideyn və həddi-buluğa çatmamış uşaqların birgə yaşadığı ailədir. Boşanmalar nəticəsində binuklear (uşaqsız, yalnız cütlüklərdən ibarət) ailələrin sayı çoxalır;
- Gənclər arasında "ailə mərkəzli" təsəvvürlərdən "fərdiyyətçi/eqosentrik" dünyagörüşünə keçid;
- Ailənin təməl sütunu olan üçlükdə (nikah/evlilik-valideynlik-qohumluq) bütövlüyün pozulması; birincinin yeganə seçim kimi üstünlük təşkil etməsi ailənin ən mühüm sosial funksiyalarının, təbii təyinatı və missiyasının yerinə yetirilməsini mümkünsüz edir;
- Doğum səviyyəsinin, uşaqların sayının azalması; perspektivdə dövlət üçün depopulyasiya təhdidinin yaranması;
- Ailə münasibətlərində demokratikləşmə tendensiyasının, gender bərabərliyinin mövcudluğu, ər-arvad arasında rol bölgüsündə onların tərəfdaşlıq münasibətlərinə keçid alınması;
- Boşanmaların çoxalması fonunda təkrar evliliklərin sayının artması; “serial nikahlar”, "yelpik" monoqamiya və s. ailə formalarının meynstrimə çevrilməsi;
- Nikahdankənar cinsi münasibətlərin normal qəbul edilməsi və intensivləşməsi;
- Alternativ nikah/evlilik formalarının çoxalması, onların qanuniləşdirilməsinin əsası kimi “insan hüquqları” ritorikasının sui-istifadə edilməsi, əsas arqument kimi “başqa cür, fərqli olmaq hüququ” - tələbinin irəli sürülməsi;

Klassik ailə modelinin hazırda mövcud olduğu iqtisadi, siyasi, sosial-psixoloji, mədəni, demoqrafik vəziyyət son illərin nəticəsi olmayıb, qlobal ümumdünya miqyasında, ailə institutu və dəyərlərində baş verən dəyişikliklərin, kifayət qədər uzunmüddətli tarixi dövrün yekunudur.

Dünya birliyinin bir parçası, dünyəvi dövlətçilik ənənələri güclü olan müasir Azərbaycan cəmiyyətində də gender münasibətləri, ailə-nikah münasibətləri cəmiyyətdə və ailədə kişi və qadınların rolları və statuslarının, dəyərlər sisteminin dəyişikliyə uğradığı sosial münasibətlərin sürətli və dinamik təsirinə məruz qalıb. Ölkəmizdə ailə institutu hazırkı mərhələdə iqtisadi cəhətdən inkişaf etmiş ölkələrin yolunu müəyyən dərəcədə, həm də deyə bilərik ki, sürətli templərlə təkrarlayır.

Ailə və ailə dəyərləri Azərbaycan xalqının minilliklər boyu topladığı misilsiz sərvət olmaqla yanaşı, bu günümüzün - XXI əsrin ən mühüm sosial-mədəni kapitalı, yabançı təsirlərə qarşı milli müqavimətimizin ən güclü sistemidir və bundan sonra da belə olmalıdır. Bununla yanaşı, arzu olunan ailə modeli dəyişir: ailənin transformasiyası nuklear ailə istiqamətinə yön alır.

Ailə və nikah institutunun böhran və transformasiya problemi müasir sosial-mədəni və siyasi-iqtisadi reallığın ən vacib məsələlərindən biri deyil, ən fundamental amilidir. Ümumən qəbul edilən yekdil qənaətə görə, sağlam, firavan ailə dövlətin dayağı, ictimai ahəng və konsensusun, siyasi və ictimai sabitliyin təməlidir. Çünki ailə perspektivdə həm də birbaşa demoqrafik problemlərin taleyində həlledici rol oynadığı üçün cəmiyyətin və dövlətin varlığına, inkişaf strategiyalarına olduqca güclü təsir göstərir.

Qabaqcıl ölkələrdə ailənin institusionallaşması sahəsində fəaliyyətin tarixi uzun müddəti əhatə edir. Bundan fərqli olaraq, Azərbaycanda “sovet ailə modelindən” sonrakı müstəqillik mərhələsində ailənin institusionallaşma prosesi son üç onillikləri əhatə edir. Müvafiq olaraq bu sahədə mütərəqqi sayıla biləcək təcrübələrin tətbiqi ilə dövlət ailə siyasətini həyata keçirən ailə təsisatlarının, infrastrukturunun formalaşması və genişləndirilməsi gündəmdə duran ilk məsələlərdəndir.

Yeni reallığın mənzərəsi, çağırışlarla şərtlənən, son onilliklər boyu formalaşan və ailə siyasətində bir çox istiqamətlərdə mövcud olan boşluqların ən qısa zamanda aşkarlanması və aradan qaldırılması əsas vəzifələrdəndir.

Cəmiyyətdə birliyi şərtləndirən, ailə dəyərlərinin qorunması əsasında sosial gərginliyin azalmasına imkan verən dövlət ailə siyasətinin hazırkı mərhələdə alternativi yoxdur. Məhz ailə institutunun real vəziyyətinin dərin təhlili, prob-

lemlər iyerarxiyasının düzgün müəyyən edilməsi, ailədaxili və ailə-cəmiyyət müstəvilərində sosial birlik kimi qarşılıqlı münasibətlərin tənzimlənməsi, dövlət və onun təməli olan ailənin mənafeyi naminə sosial sistemin bütün institutlarının fəaliyyətini əlaqələndirməyi təmin edən və strateji inkişaf istiqamətlərini müəyyən edən dövlət ailə siyasəti hazırda qlobal miqyasda ümumilikdə sosial siyasətin ana xəttini təşkil edir.

Təqdim edilən, "Azərbaycanda mövcud ailə münasibətləri: sosial-psixoloji təhlil" adlı sosioloji sorğu əsaslı tədqiqatın nəticələri ölkəmizdə tarix boyu ən dayanıqlı institutlardan sayılan Azərbaycan ailə modelinin vəziyyətini və baş verən transformasiya proseslərinin aşağıdakı bəzi xüsusiyyətləri və tendensiyalarını müəyyənləşdirməyə imkan verir:

- Müasir dünyada ailə sosial institut kimi həm inkişaf etmiş ölkələr, həm də inkişaf etməkdə olan, Azərbaycan kimi sosial-iqtisadi islahatlar yoluna qədəm qoymuş ölkələr üçün xarakterik olan dərin və davamlı bir böhran zolağına daxil olub;
- Azərbaycanda sovet tipli ailədən, patriarxal ailə modelindən müasir-modern və postmodern tipli bir ailə modelinə keçid proseslərinin sürətlənməsi baş verir;
- Azərbaycan ailə institutu bir sıra kompleks - tarixi, mədəni, ictimai-siyasi, iqtisadi, ideoloji, dəyər, informasiya müharibəsi, xarici mənbədən yönəldilən təsirlər və s. amillərin inteqrativ təzyiqi altında dəyişikliklərə məruz qalıb, ailənin ənənəvi mövcud olan mahiyyəti, məqsədi, insan həyatında rolu, cəmiyyətin və dövlətin həyatında statusu fərqli istiqamətlərə meyillənib;
- Ailə institutunun transformasiya prosesinə müstəqillikdən sonrakı Azərbaycan cəmiyyətində baş verən epoxal ictimai-siyasi proseslər; qloballaşma prosesi daxil olmaqla ailə institutuna nüfuz edən ümumdünya, ümumavropa meyilləri və s. amillərin təsiri güclənib;
- Azərbaycan ailə institutunun transformasiya prosesində onun fəaliyyətinin və ailədaxili münasibətlərin qarşılıqlı əlaqəsinin əsasları, dəyər yönümləri və həyat prioritetlərinin dəyişməsi labüd görünür;
- Ailədaxili ər-arvad münasibətlərində baş verən münaqişələr cəmiyyətdə dayanıqlılığa təhdid və sosial gərginliklərin əsas mənbələrindən biridir;
- Boşanmalar müasir Azərbaycan ailəsinin mənəvi və psixoloji səbəblərdən qaynaqlanan başlıca problemi statusuna malikdir;
- Sosial şəbəkələr, informasiya manipulyasiyası və rəqəmsal geosiyasət müasir gəncliyin ailəyə münasibəti və ailə həyatına hazırlığının fərqli şəkildə formalaşmasını şərtləndirir. Smartfonlar ailədə valideyn-uşaq münasibətlərinə, uşaqlara valideynlərin zaman ayırmasına əngəl yaradan vasitəyə çevrilir.
- Ölkədə Qərbdən yönləndirilən radikal feminizm və cinsi azlıq-LGBTİ lobbiçiliyinin güclü maliyyələşdirilməsi ilə bağlı layihələr çərçivəsində ailədaxili münasibətlərə sosial şəbəkələr vasitəsilə müdaxilələr edilir, gənclərin sözügedən şəbəkələşməyə cəlb edilməsinə səylər göstərilir.

Tədqiqatda qeyd edilən bu və digər məsələlərin təhlili nəticəsində dövlət ailə siyasətinin qanunverici əsaslarının, ailəyə sosial-psixoloji dəstək formalarının, ailə siyasətinin həyata keçirilməsinin institusional infrastruktur və mexanizmlərindəki ciddi çatışmazlıqlara diqqət cəlb etməklə, elmi şəkildə əsaslandırılmış Azərbaycanın ailə institutunun mövcud olduğu reallığa adekvat dövlət ailə siyasəti konsepsiya və strategiyasının hazırlanmasına töhfə - təklif və tövsiyələrin verilməsi əsas hədəflərdən biri kimi nəzərdə tutulub.

# I HİSSƏ.

## TƏDQİQATIN MƏQSƏDİ VƏ VƏZİFƏLƏRİ

- Tədqiqatın əsas məqsədi qlobal miqyasda baş verən sosial inqilab və radikal transformasiyaların ailələrə təsiri fonunda ölkəmizdə ailədaxili münasibətlərdə müşahidə edilən dinamika və tendensiyaların öyrənilməsi, sosioloji təhlil əsasında aşkara çıxarılmasıdır;
- Həmçinin, Azərbaycanda ailə həyat tərzi, ailədaxili münasibətlər, ailə mühitinin durumuna ictimai münasibəti öyrənmək, ailə institutumuzun dinamikasını izləməklə sonrakı inkişaf vektorlarını, ailə və cəmiyyət arasında formalaşmış sosial-psixoloji, mənəvi əlaqələrin, qarşılıqlı təsirin xüsusiyyətlərini müəyyənləşdirməkdir;
- Tədqiqatda müasir nikah institutunun problemlərini, gənclərin ailə, ailə həyatı və dəyərləri barədə təsəvvürlərini nəzərdən keçirmək; ailə münaqişələrində davranış strategiyalarının, gənclər arasında alternativ evlilik formalarına münasibətin aşkarlanması da əsas məqsədlərdən biridir;
- Tədqiqatın məqsədlərindən biri də Azərbaycan ailəsi, onun xüsusiyyətləri, güclü və zəif tərəfləri ilə bağlı müzakirələrə təkan verməklə, ailə institutumuzun transformasiya vektorlarını, dövlət ailə siyasətinin yeni istiqamətlərini müəyyənləşdirmək yönündə müxtəlif nəsillərin nümayəndələrinin arzu olunan ailə modelinin ümumi və spesifik xüsusiyyətlərini təqdim etməkdir;

Tədqiqatda qarşıda duran aşağıdakı vəzifələr yerinə yetirilib:

- İctimai rəy sorğusunun kəmiyyət və keyfiyyət əsaslı tədqiqinin nəticələrini əks etdirən bu analitik hesabatda müstəqillikdən keçən otuz il ərzində Azərbaycanda ailə institutunun formalaşması, təkamülü və inkişaf dinamikası ilə bağlı proseslərin qısa dəyərləndirilməsi əksini tapıb.
- Ailə institutunda hazırkı reallığın, ölkəmizdə qadın və uşaq problemləri, hüquqları, gender məsələləri, məişət zorakılığı və s. ilə bağlı indiyə qədər aparılan tədqiqatların nəticələri ilə müqayisəli dinamikasını, ailə institutumuzun hazırkı vəziyyətini, ailə münasibətlərində baş verən sosial-psixoloji proseslərin tendensiya və meyillərini izləmək və aşkara çıxarmaqla onun vahid sosioloji mənzərəsi göz önündə canlandırılıb;
- Hesabatda müasir Azərbaycan ailəsində və ailədaxili münasibətlərdə baş verən dəyişikliklər, dövrün çağırışlarına və ortaya çıxan çoxsaylı suallara cəmiyyətdən gələn cavablar real ictimai rəy güzgüsündə təqdim edilib.

**Tədqiqat çərçivəsində respondentlərə ünvanlanan, bütövlükdə cəmiyyəti narahat edən sualların cavablandırılması aşağıdakı məqsəd və vəzifələrin yerinə yetirilməsinə xidmət edib. Sorğuda öyrənilən məsələlərdən bəziləri aşağıdakılardır:**

**1.** Azərbaycan ailəsinin təməlini təşkil edən ailə dəyərlərinin xüsusiyyətləri nədə ifadə olunur? Gənclərə ailə dəyərləri nə dərəcədə aşılanır?

**2.** Müstəqillikdən keçən onilliklər ərzində Azərbaycan ailəsi, ailədaxili münasibətlər nə dərəcədə dəyişikliyə uğrayıb? Müsbət, yoxsa mənfi tendensiyalarla bağlı təsəvvürlər üstünlük təşkil edir?

**3.** Hazırda dünya miqyasında ailə institutu böhran yaşayır. Azərbaycan ailəsi ilə bağlı nə kimi rəylər mövcuddur? Hansı proseslər baş verir?

**4.** Ailədaxili münasibətlərə, dəyərlərimizə olan ziyanlı təsirlər, təhdidlər, təhlükələr barədə cəmiyyətdə nə kimi fikirlər mövcuddur?

**5.** Hazırkı reallıqda dövlətin ailə siyasətini, ailələrə sosial-psixoloji dəstək proqramlarını və mexanizmlərini necə dəyərləndirirsiniz?

**6.** Başqa hansı dəstək formaları ilə bağlı cəmiyyətdə gözləntilər var?

**7.** Azərbaycan ailəsinin möhkəmləndirilməsi üçün hansı tədbirlərin həyata keçirilməsi vacibdir?

**8.** Ailələrdə uşaqların sayı, demoqrafik artım problemi mövcuddurmu? Yaxın gələcəkdə bizi hansı tendensiya: doğum səviyyəsinin azalması, yaxud artması gözləyir?

**9.** Azərbaycanda ailə-nikah münasibətlərində hansı dəyişikliklər baş verib? Hansı müsbət və ya mənfi məzmunlu proseslər çoxalmaqdadır?

**10.** Son dövrə aid statistik məlumatlarda boşanmaların sayının çoxalmasına

cəmiyyətin münasibəti necədir?

**11.** Ailədaxili münasibətlərdə mövcud dəyişiklikləri daha çox hansı amillər şərtləndirir? Bu proseslər hansı tendensiyanı göstərir?

**12.** Ailə münaqişələrinin əsas səbəbləri nədən qaynaqlanır?

**13.** Gənc ailələrin ən çox üzləşdiyi problemlər necə sıralanır?

**14.** Sosial şəbəkələr, internet məkanı ailə münaqişələrinə, dəyərlərinə necə təsir edir?

## 1.1. TƏDQİQATIN METODOLOJİ PRİNSİPLƏRİ

### Keyfiyyət əsaslı tədqiqat

Ailə çoxsaylı elmlərin (sosiologiya, psixologiya, iqtisadiyyat, demoqrafiya, hüquq, mədəniyyət, pedaqogika, tibb, siyasət və s.) tədqiqat obyekti olduğu üçün mövzunun tədqiqində metodoloji yanaşma qismində elmlərarası metodoloji prinsip əsas götürülüb.

Sosial araşdırmalarda tədqiqat subyektinə mütəxəssis baxışı əldə etmək üçün ekspert sorğularından istifadə edilir. Statistik məlumatların/datanın çatışmazlığı hallarında araşdırılan sahənin spesifik xüsusiyyətlərinə bələd olan ekspertlərin qiymətləndirmələri etibarlı məlumat mənbəyi kimi çıxış edir.

Sorgu nəticələrinin kəmiyyət və keyfiyyət aspektlərinin ümumiləşdirilməsi problemin qoyuluşuna həm respondent, həm də mütəxəssis münasibətlərinin müqayisəli təhlili əsasında daha dolğun qənaət və tövsiyələrə gəlməyə imkan yaradır.

Ekspert rəylərinin əldə edilməsi üçün 27 ekspert-respondentlə (vəkil və hüquqşünas, qeyri-hökumət təşkilatlarının rəhbərləri, sosioloq və psixoloqlar, aidiyyəti dövlət qurumlarının nümayəndələri) dərinləşdirilmiş müsahibələr aparılıb. Müxtəlif sahələrdə çalışan və ixtisaslaşan ekspertlər qrupu ilə dərinləşdirilmiş müsahibələrin aparılması ailə məsələlərinin çoxsaylı cəhətlərinə və problemlərinə müxtəlif baxış bucaqlarının öyrənilməsinə, səlahiyyətli şəxslərdən götürülmüş təfərrüatlı məlumatlar hesabatın nəticələrinin zənginləşməsinə və tövsiyələrin əsaslandırılmasına mühüm töhfə verib. Ekspertlərlə aparılan dərinləşdirilmiş (müfəssəl) müsahibələr tədqiq edilən sahənin dərinlik dərəcəsini müəyyənləşdirmək, data bazanın olmadığı, yaxud az sayda mövcudluğu şəraitində etibarlı elmi tədqiqatlar və rəsmi dövlət/inzibati mənbələrdən olan məlumatlarla bağlı boşluğu aradan qaldırmağa imkan verir.

Tədqiqat qrupu tərəfindən ailə və nikah problemlərinin kəmiyyət və keyfiyyət metodlarının sintezdə tətbiqi Azərbaycanda müasir dövrdə ailə münasibətlərinin transformasiyasının, gender və ailə məsələlərinin vəziyyətini araşdıran xarici və yerli alimlərin, beynəlxalq təşkilatların AQUPDK ilə birgə həyata keçirdiyi tədqiqatların, icmal və dəyərləndirmələrin, yerli və qlobal hesabatların, reytinq-indekslərin, siyasət sənədləri və ya tədqiqat işlərinin, habelə statistik məlumatların təhlilinin ümumiləşdirilməsinə imkan verib.

Müxtəlif sahələr üzrə toplanmış məlumatların etibarlılığını və mötəbərliyini təmin etmək məqsədilə tədqiqat qrupu kəmiyyət sorğusu vasitəsilə əldə olunmuş məlumatları keyfiyyət əsaslı məlumatların təhlilindən əldə edilmiş nəticələrlə “trianqulyasiya” prizmasında istifadə edib. Sosial elmlərdə “trianqulyasiya” eyni nəticələrin, göstəricilərin müstəqil, obyektiv yoxlanılması üçün bir neçə metoddan istifadə edilərək təhlil edilməsidir.

Keyfiyyət əsaslı təhlildə son onilliklərdə Azərbaycan ailəsinin keçdiyi mərhələnin dinamikasını, hazırkı vəziyyətini səciyyələndirən dövlət ailə siyasəti ilə bağlı qəbul edilmiş qanunvericilik və tənzimləyici sənədlərin, Dövlət Statistika Komitəsinin, həmçinin yerli və xarici tədqiqatçıların təhlillərinin nəzərdən keçirilməsi əsasında qənaətlər əksini tapıb.

Son onilliklərdə Azərbaycanda beynəlxalq təşkilatlar tərəfindən ailə, gender, qadın və uşaq hüquqları, məişət zorakılığı və s. sahələrdə bir sıra tədqiqatlar, sorğu layihələri (survey) aparılıb. Bu tədqiqatlar konkret layihə məqsədlərinə xidmət etməklə yanaşı, qabaqcıl xarici ölkələrlə müqayisədə ölkəmizdə müxtəlif sahələrdə mövcud olan məlumat-verilənlər bazası, təfərrüatlı statistika və data baza ilə bağlı mövcud olan boşluqları aradan qaldırmağa şərait yaradır.

Analitik hesabatda müasir dünyada ailənin və ailə dəyərlərinin dinamikası və transformasiyası fonunda ölkəmizdə bu

sahənin xüsusiyyətləri, ailənin sosial funksiyaları, inkişafındakı ənənəvi və alternativ meyillərin nisbəti barədə təhlil əksini tapıb. Xüsusilə də ailədə valideyn cütlüklərin, valideyn-övlad münasibətlərinin mənəvi və əxlaqi problemlərinə, ailənin gənc nəslə təsir formalarına diqqət yetirilir. Burada müxtəlif tip (tam və natamam, çoxuşaqlı, geniş, əlil və övladlığa götürmə baxımından fərqlənən) ailələrin sosial-psixoloji xüsusiyyətlərinə, gənclərin ailə-nikah məsələsinə münasibəti və valideynlik missiyası ilə bağlı təsəvvürlərinin formalaşdırılmasının mövcud vəziyyətinə, perspektivlərinə nəzər salınır. Problemlərdən çıxış yolları açıqlanır. Müasir cəmiyyətdə dövlətin ailə siyasəti modelləri, ailəyə sosial dəstək formaları, sosial-psixoloji problemlərin həlli üsulları, bütövlükdə ailə münasibətlərinin möhkəmləndirilməsi yolları nəzərdən keçirilir.

Ekspert sorğusunun nəticələri "Keyfiyyət əsaslı təhlil" bölməsində yerləşdirilib.

## Kəmiyyət əsaslı tədqiqat

### Tədqiqatın coğrafi əhatəsi

Sorğu Bakı, Abşeron, Gəncə-Qazax, Şəki-Zaqatala, Lənkəran, Qarabağ, Quba-Xaçmaz, Aran və Dağlıq Şirvan iqtisadi-coğrafi rayonlarını əhatə edib, 2400 respondentin iştirakı ilə aparılıb və 27 ekspertin rəyi öyrənilib. Naxçıvan Muxtar Respublikası və işğaldan azad edilmiş regionlar sorğuda əhatə edilməyib.

### Respondentlərin seçimi

Tədqiqat çərçivəsində respondentlərin seçimində təsadüfi seçmənin ehtimal ölçüyə mütənasib çoxpilləli klaster seçməsindən istifadə edilib ki, bu da hər bir respondentə bərabər səviyyədə iştirak imkanı verib. İlk mərhələdə sorğuda əhatə ediləcək 40 rayon, növbəti mərhələdə həmin rayonlardan 200 yaşayış məntəqəsi seçilib və hər məntəqədən 12 respondentlə sorğu keçirilib. Seçilmiş yaşayış məntəqəsində sorğuda iştirak üçün intervüyerlərin yaxınlaşacağı evlərin təyin edilməsi tərtib edilmiş təsadüfi gəzinti təlimatına əsasən aparılıb. Hər yaxınlaşılan evdə sorğuda iştirak etməyə uyğun respondentlərin sayı birdən artıq olanda son ad günü prinsipinə üstünlük verilib.

Sorğuda əhatə edilmiş respondent sayına əsasən nəticələrin xəta əmsalı 95% əminlik intervalında 2.0% təşkil edir.

### Tədqiqat metodu

Tədqiqatın aparılmasında kəmiyyət metodologiyası çərçivəsində ailələrlə anket sorğusu, keyfiyyət metodologiyası çərçivəsində isə hədəf qrupuna daxil olan müxtəlif sahələrdən olan mütəxəssislərlə dərinləşdirilmiş müsahibə-məlumat toplama metodundan istifadə edilib.

### Sorğu anketi

Sorğu anketinin sualları yerli vəziyyət nəzərə alınmaqla yanaşı, beynəlxalq təcrübəyə istinadən hazırlanıb. Sorğu anketi 92 (83 spesifik və 9 sosial-demoqrafik) sualdan ibarətdir. Suallar aşağıdakı istiqamətlər üzrə olub:

- Ailələrin problemlərinin mənşəyinin və mahiyyətinin müəyyən edilməsi;
- Ailədə stress mənbələrinin müəyyən edilməsi;
- Ailənin iqtisadi vəziyyəti və ailə büdcəsinin idarəedilməsi;
- Ailə dəyərlərinə baxış, kollektiv sosial fəaliyyətlər, məişət işlərinin bölgüsü, cəmiyyətdə gender rollarına baxışın müəyyən edilməsi;
- Ailə planlaşdırması (qoruyucu vasitələrdən istifadə, aborta baxış və respondentin öz təcrübəsi), dünyaya gələcək uşağın cinsə görə seçilməsi, partnyorlar arasında cinsi münasibətin keyfiyyəti kimi məsələlərin öyrənilməsi;
- Ailədə uşağın tərbiyə üsulları, övladın böyüdülməsində valideynlərin iştirakı, qarşıya çıxan problemlər, övladın maddi və mənəvi tələbatlarının ödənilməsi kimi məsələlərin araşdırılması;
- Ailələrin sosial-psixoloji dəstək və xidmətlərə münasibəti, onlardan istifadə və məmnuniyyət, qurumlara müraciət etmə/etməmənin səbəbləri; bu istiqamətdə fəaliyyət göstərən qurumlar haqqında məlumatlılıq səviyyəsinin öyrənilməsi.

Genişmiqyaslı tədqiqatdan öncə 30 respondentlə sınaq sorğusu keçirilib. Sınaq sorğuları məktəblərin tam formada fəaliyyət göstərməməsi səbəbindən onlayn anket ilə keçirilib. Sınaq sorğularının nəticələrinə əsasən respondentlərin seçmə dizaynında və anket suallarında müvafiq dəyişikliklər edilib.

### Sahə işi

Sorğu 2020-ci ilin aprel ayının 22-dən

may ayının 9-dək olan dövrdə aparılıb. Sorğunun orta keçirilmə müddəti 28 dəqiqə, standart sapması isə 10 dəqiqə təşkil edib.

**Sorğunun aparılması üsulu**

Sorğu karantin rejiminin tələblərini nəzərə almaqla üzbəüz keçirilib. Sorğuların keçirilməsində müasir texnologiyalar tətbiq olunub. Belə ki, müasir sorğu proqramı SurveyToGo-dan istifadə edilib ki, bu da həm sahə işinə nəzarət üçün əlavə imkanlar yaradır, həm də məlumatların toplanılması zamanı insan faktorunun təsirini əhəmiyyətli dərəcədə azaldır.

**Etik prinsiplər**

Respondentlər sorğuda iştirakın könüllü olması, istənilən anda sorğunu dayandırmaq və hər hansı suala istəmədikdə fikir bildirməmək hüququnun olması barədə ətraflı məlumatlandırılıblar. Müsahibələrin məxfiliyi ciddi şəkildə qorunub. Bütün müsahibələrdə anonimlik təmin edilib. Respondentlər əmin ediliblər ki, onların cavabları yalnız ümumiləşdirilmiş şəkildə istifadə olunacaq. Bu amil sorğu nəticəsində toplanılan məlumatların yüksək etibarlılığını təmin edib.

**Təlimat**

Sorğunun keçirilməsində 15 intervüyer və 2 koordinator iştirak edib. İntervüyerlər üçün Sosial Tədqiqatlar Mərkəzi tərəfindən təlimat qaydaları hazırlanıb.

İntervüyerlər işə başlamamışdan əvvəl Mərkəzin əməkdaşları tərəfindən keçirilən təlimdə iştirak ediblər. Təlimdə keçirilən sorğunun məqsədi, respondentlərə ünvanlanan suallar və respondentin seçilməsi üsulu barədə geniş izahatlar verilib.

**Məlumatların işlənilməsi və təhlili**

Sorğu başa çatdıqdan sonra hər bir anket üzrə bazaya toplanan məlumatlar xüsusi proqram - SPSS (Statistical Package for the Social Sciences (Sosial Elmlər üzrə Statistik Proqram Paketi)) vasitəsilə təhlil edilib.

Dəyişənlər arasında statistik əhəmiyyətli əlaqənin tapılması və müxtəlif sosial-demoqrafik qruplar arasında dəyişənlərin müqayisəsi üçün $X^2$ və korrelyasiya testindən istifadə edilib.

**Qeyd:** Yuvarlaqlaşdırma səbəbindən diaqramlarda faizlərin cəmi 100%-dən fərqli ola bilər.

**Prosesə nəzarət**

Keyfiyyətə nəzarət etmək üçün hər müsahibəçinin (intervüyer) gün ərzində keçirdiyi sorğuların sayı, keyfiyyəti təhlil edilib. Həmçinin proqramın GPS funksiyası vasitəsilə intervüyerlərin getdiyi ünvanlar, bir ünvanda qalma müddəti gündəlik yoxlanılıb. Bundan əlavə, hər bir sorğuya və sorğuda olan bütün suallara ayrı-ayrılıqda sərf olunan vaxtın müddətinə nəzarət edilib.

**Respondentlərin sosial-demoqrafik göstəriciləri**

Respondentlərin əsaslı hissəsi azərbaycanlı (96.7%) və müsəlmandır (98.6%). Seçmə daxilində gender balansı qorunub – kişi (50.3%) və qadın (49.7%). Sorğuda iştirak edənlər arasında 26-35 (26.3%) və 36-45 (23.4%) yaş aralıqlarında olanlar, eləcə də tam orta təhsillilər (45.7%) üstünlük təşkil edib. Məşğuliyyət statusu cəhətdən dövlət sektorunda çalışanların çəkisi (30.8%) daha çoxdur.



## II HİSSƏ.

## İCTİMAİ RƏY SORĞUSUNUN ƏSAS NƏTİCƏLƏRİNİN TƏHLİLİ

**I BÖLMƏ.**

# Ailə institutu, ailə və nikah münasibətlərinin cəmiyyətdə yeri

***Diaqram.1.1.***




***Diaqram 1.2.***




Sorğuda iştirak edən ailələrin mütləq əksəriyyəti - 93.2%-i "Ailə kiçik dövlətdir" fikri ilə tam razı, 3,6%-i qismən razı olduğunu bildirib, 3.2%-i isə "razı deyiləm" fikrini ifadə edib. Bu, onu göstərir ki, ailə sahəsində bəzi mənfi tendensiyaların yer almasına baxmayaraq, rəyi soruşulanlar arasında Azərbaycan ailə institutunun cəmiyyətdə və dövlətçilik həyatında statusu ilə bağlı təsəvvürlər yüksək səviyyədədir. Sual cəmiyyətdə ailənin əhəmiyyətini adekvat dəyərləndirməyən respondentlərin çox aşağı faiz təmsil etdiyini aşkarlayıb ki, bütövlükdə hazırkı məqam üçün bu göstərici narahatlıq doğuran səviyyədə deyil.

Respondentlərlə müsahibələrdə cari yüzillikdə ailənin XX əsrlə müqayisədə nə kimi dəyişikliyə uğraması barədə təsəvvürləri qiymətləndirmək üçün onlara sual ünvanlanıb. Rəyi soruşulanların təxminən üçdə ikisi, yəni 61.2%-i XXI əsr Azərbaycan ailəsinin XX əsr ailəsindən çox, 25.8%-i isə qismən fərqləndiyini düşünür. Bu göstərici müstəqillik dövründə ailənin təkamül və dinamikasında baş verən dəyişikliklərin kifayət dərəcədə hiss edilməsinə dəlalət edir. Dəyişikliklər barədə təsəvvürlər ailə institutunun bütün aspektlərini əhatə edir və sovet dövrü ailəsi ilə müqayisədə postsovet ailə modelinin fərqli xüsusiyyətlər kəsb etməsini göstərir.

Rəyi soruşulanlardan ailə münasibətlərinə ziyan vuran amillərə rəylərin bildirilməsi xahiş edilib. Verilən cavablarda ailə münasibətlərinə müxtəlif amillərin - sosial şəbəkələrin, xarici serialların/kinoların, maddi vəziyyətin, Qərb ailə dəyərlərinin düzgün təbliğ olunmamasının, Azərbaycanda özünü feminist kimi təqdim edənlərin, tərəflərin dünyagörüşünün aşağı olmasının, yerli televiziyalarda olan verilişlərin məzmununun, antiailə təbliğatının çoxalmasının, yerli serialların, karantin rejiminin davam etməsinin, gender bərabərliyinin düzgün təbliğ olunmamasının, cinsi azlıqlar mövzusunun təbliğinin təsiri olduğu vurğulanıb.

Ailə dəyərlərimizə ziyan vuran amillər sırasında ilk üçlükdə sosial şəbəkələr, maddi-iqtisadi vəziyyət və xarici serialların təsiri qərarlaşıb. Respondentlərin 64%-i sosial şəbəkələrin, 47.6%-i maddi vəziyyətin, 44.9%-i xarici serialların

*Diaqram 1.3.*




və kinoların zərərli olduğu fikrindədir. Bu 3 amil respondentlərin daha böyük hissəsi tərəfindən ailə dəyərlərimizə qarşı ziyanlı təsirlər və təhlükələr kimi ifadə edilib. Maraqlıdır ki, təxminən hər 4 nəfərdən biri karantin rejiminin davam etməsini ailə institutu üçün təhlükəli olduğunu düşünür.

Ailə münasibətlərinə ziyan vuran amillərə alınan cavablarda narahatlıq doğuran məsələ respondentlərin kifayət qədər çoxsaylı hissəsinin "Bu və ya digər səbəbdən ərin ailədən kənarda (ölkə daxilində və ya xaricində) yaşaması"(37.2%) və "Qeyri-rəsmi nikahların rəsmi nikahlara münasibətdə çoxalması" (39.2%) kimi cavablar verməsi olub. Buradan belə nəticə çıxır ki, uşaqların valideyn cütlüklərin olduğu tam ailə modeli ilə müqayisədə, uşaqların tək valideynlə yaşadığı natamam ailə modeli geniş yayılmaqdadır. Həmçinin qeyri-rəsmi nikahların çoxalması fikri də özlüyündə arzuolunmaz tendensiyanı ifadə edir.

Ailə münasibətlərinə ziyan vuran amillər sırasında istər cəmiyyətimiz, istərsə də ənənəvi Azərbaycan ailəsi üçün qətiyyən səciyyəvi olmayan "Cinsi azlıqlar mövzusunun təbliği" (17.4%), "Azərbaycanda özünü feminist kimi təqdim edənlər" (16.1%), "Gender bərabərliyinin düzgün təbliğ olunmaması" (17%) fikirləri də təxminən eyni dərəcədə narahatedici sayılıb. "Qərb ailə dəyərlərinin düzgün təbliğ olunmaması" (18.9%), "Tərəflərin dünyagörüşünün aşağı olması" (27.8%) birlikdə böyük rəqəm təşkil edir. Eyni zamanda, Azərbaycan ailə modelinin qərbləşmə, Qərb dəyərlərinin aqressiv təbliği fonunda təzyiqə məruz qalması da narahatlıq doğuran tendensiyadır.

Toplam olaraq, ailə dəyərlərini tənəzzülə uğradan başlıca amillərin sadalanması Qərb dəyərlərinin güclü təbliğinin sosial şəbəkə və internet kanallarında əsas hədəflərdən biri olduğuna dəlalət edir. Maraqlı və paradoksal hesab edilən məsələlərdən biri də respondentlərin müəyyən qisminin "yerli serialları" da (19.1%) ailəyə ziyanlı amillər sırasına daxil etməsidir. Həmçinin, "Azərbaycanda özünü feminist kimi təqdim edənlərin" fəallığı da cəmiyyətdə gərginliyi hiss etdirəcək dərəcədədir.

Respondentlərin cavablarında "Qeyri-rəsmi nikahların rəsmi nikahlara münasibətdə çoxalması" amili kifayət qə-

dər yüksək rəqəm ifadə edir (39.2%). Bu, mövcud vəziyyətə adekvat cavab sayıla bilər. Belə ki, bu mövzuda cəmiyyətdə də müzakirələr gedir. Hətta "Azərbaycanda artıq vətəndaş nikahı ilə yaşayanların və bu nikahdan övlad dünyaya gətirənlərin sayının rəsmi nikaha girənlərin sayına demək olar ki çatması, bununla bağlı Ailə Məcəlləsinə və digər qanunvericilik sənədlərinə tənzimləyici müddəaların salınması” da təklif edilir.

“De-yure” deyil, “de-fakto” nikahlar yalnız mövzu kimi deyil, bir tendensiya kimi genişlənməkdədir. Ekspertlərin fikrinə görə, həm nikaha daxil olanların, həm də boşananların sayı Dövlət Statistika Komitəsinin məlumatında olduğundan xeyli çoxdur. Xüsusən, boşanmaların sayı dəfələrlə artıqdır. Ölkədə ümumiyyətlə nikahsız, yaxud təkcə dini nikahla yaşayanlar kifayət qədərdir. Digər tərəfdən, adətən, ailə zəminində münaqişə və s. səbəblərdən də, rəsmi nikahlar pozulmadan birgə yaşamayan cütlüklər də var. Bu və digər təzahürlərin əksəriyyətinin ailə modelimizin xarakterinə yad olmasına rəğmən yayılması transformasiyalardan xəbər verir.

***Diaqram 1.4.***




Ailə və nikahla bağlı fikirlərə münasibət bildirərkən 90.6% respondent hər kəsin gec-tez ailə qurmalı olduğunu, 77.8% respondent isə məcburi evlilikdənsə heç evlənməməyin daha yaxşı olduğunu deyib. Rəyi öyrənilənlərin 9.8%-i ailə həyatının peşə və karyerada irəliləməyə mane olduğu, 15.4%-i isə ailə qurmağın fərdin azadlığı və ya

***Diaqram 1.5.***




müstəqilliyini məhdudlaşdırdığı fikirləri ilə tam razıdır. Demək olar ki, hər 5 nəfərdən biri ailədə aldatma, xəyanət və münaqişələrin qaçılmaz olduğu fikri ilə tam razılıq ifadə edib.

Sonuncu nəticə ailədaxili münasibətlərdə əminlik və güvən kimi ailə dəyərlərinin dəyişikliyə uğramasını deməyə əsas verir.

Eyni zamanda cavablar ailə modelinin plüralistik mənzərəsini, ölkəmizdə hələlik Qərbdə geniş yayılan “karyerist” ailə modelinin aparıcı meylə çevrilmədiyini göstərir. Digər tərəfdən, ailə həyatının peşə-karyerada irəliləməyə mane olduğunu düşünənlərin də sayı az deyil.

## Nikah-evlilik münasibətlərində qohumluq əlaqələrinə münasibət

***Diaqram.1.6.***




Rəyi öyrənilənlərin nəzərəçarpacaq hissəsi, yəni təxminən 35%-i yaxın qohumlar arasındakı evliliyə yaxşı münasibət göstərdiyi halda, uzaq qohumlar arasındakı evlilik üçün analoji göstərici bundan 2 dəfədən daha yüksək - 79.1%-dir. Yaxın qohumlar arasındakı evliliyə münasibətlə bağlı cavablar göstərir ki, bu cür nikah/evlilik ənənələrinin kökləri hələlik dərindir.

## Nikaha daxilolma - evlilik yaşına münasibət

***Diaqram 1.7.***




Rəyi soruşulan respondentlərin fikrinə görə, evlilik üçün ən uyğun yaş kişilərdə 23-27 yaş (73.6%), qadınlarda isə 18-22 yaşdır (51.2%). Ümumiyyətlə, respondentlər bir qayda olaraq qadınların ən gec halda 27 yaşa qədər evlənməli olduğunu düşünürlər. Qadınların evlilik üçün ən uyğun yaşını 23-27 hesab edən respondentlərin faizi (46.5%), fikrimizcə, maraqlı nəticə olmaqla qadınlar üçün tez evliliyin şərt olmadığını, onların təhsil və karyera sahəsində fəal olmasına dair təsəvvürləri ifadə edir. Həmçinin, müasir ailə modeli barədə təsəvvürlərin möhkəmlənməsinə işarə edir.

Başqa millətlərin nümayəndəsindən olan qadın və kişi arasındakı nikaha, aborta, o cümlədən uşağın cinsinə görə abort olunmasına münasibət aşağıdakı kimidir.

***Diaqram 1.8.***




Müasir ailə modeli üçün qarışıq, (əcnəbi) nikahlar xarakterikdir. Bu baxımdan, respondentlərə ünvanlanan ''Sizin millətdən olan kişi ilə başqa millətlərin nümayəndəsindən olan qadın arasındakı nikaha münasibətiniz necə-

dir?" sualına seçmənin təxminən 35%-i müsbət baxdığı halda, qadınlar üzrə bu göstərici 25.2%-dir ki, bu da müəyyən qədər gender diskriminasiyasından xəbər verir. Başqa sözlə, 55.9% kişi respondent onunla eyni millətdən olan qadının başqa millətlərin nümayəndəsindən olan kişi ilə nikah bağlamasına pis baxır. Oxşar mənzərə fərqli dinlərdən olan şəxslərin nikahına dair də müşahidə edilib.

AQUPDK-nin məlumatına görə, Azərbaycanda 2000-2018-cı illərdə abortların sayı 17 min 500-dən 37 min 300-ə qalxmışdır. Abortlar arasında selektiv abortların sayı çoxdur. Azərbaycan bu göstərici üzrə dünyada 1-2-ci yerdədir. Cəmiyyətdə selektiv abortlara şərait yaradan mədəni stereotiplərdən irəli gələn mənfi münasibətdir. Selektiv abortlar istənilən ölkədə cinsə görə disbalansa əhalinin dinamikasında xoşagəlməz nəticələrə gətirib çıxara bilir.

Bu baxımdan respondentlərə abort və selektiv abortlar haqqında sual ünvanlanıb. Alınan cavablar mövcud tendensiya ilə bir qədər əkslik təşkil etsə də, perspektivlərə ümidlə baxmağa imkan verir.

Belə ki, əhalinin olduqca az hissəsi (5%-dən az) abort və selektiv aborta müsbət baxır. Gender amili aborta münasibətə təsir edən yeganə amil kimi fərqlənib. Belə ki, müsbət baxan 5% respondentin 65.7%-i qadınlardır (x=21.948 (2), $p<0,01$). Uşağın cinsinə görə selektiv abort olunmasına mütləq əksəriyyət (90%) mənfi baxır, bu məsələdə heç bir göstərici üzrə qruplararası fərq müşahidə edilməyib.

# Evliliyə, övladlara, ailə üzvlərinə münasibət

***Diaqram 2.1.***




Ailədaxili münasibətlərdə yeni evlilik mühitinə uyğunlaşma ailədə dayanıqlığın təməlinin, sosial-psixoloji əsaslarının formalaşmasında mühüm əhəmiyyətə malikdir. Ailə psixologiyasına görə, tərəflər evliliyin ilk 3 ilini daha çox yeni mühitə - ailə mühitinə uyğunlaşma kimi dəyərləndirməli, qarşı tərəfin ailə üzvlərini tanımağa çalışmalı, gözləntilərinin nələrdən ibarət olduğuna diqqət etməlidirlər. Evlilik müddəti və boşanmalarla bağlı qlobal statistikaya görə, nikahdan sonrakı 4-cü ildə boşanmalar dünyada ilk sırada durur.

Bu baxımdan respondentlərə evləndikdən sonra yeni ailə mühitinə neçə aya uyğunlaşa bilməsi ilə bağlı sual ünvanlanıb. Rəyi soruşulanların 44.2%-i yeni mühitə 1-6 aya, 28.4%-i bir aydan az müddətə, 16.7%-i 7-12 aya,10.8%-i isə 12 aydan çox müddətə uyğunlaşdığını bildirib.

Yenə də ailə psixologiyasının qənaətlərinə istinad edilsə, yeni mühitə uyğunlaşma, adaptasiya dövrünün öz müddəti, qanunuyğunluqları var. Bu müddətin sürətləndirilməsi, yaxud ləngidilməsi bəzən ailələrin dağılmasına səbəb olan amillərdəndir. Göründüyü kimi, sorğuda iştirak edən ailələrin daha çox hissəsində - 44.2%-də tərəflər yeni ailə mühitinə 1-6 ay ərzində uyğunlaşa bildiyi halda, cəmi 10.8% ailələrdə bu müddət bir ildən çox çəkib.

Bu baxımdan respondentlərin çoxunun - 28.4%-nin adaptasiya dövrünü 1 aydan az göstərməsi, gənclərin, cütlüklərin ailə həyatına ciddi, hərtərəfli biliklərə yiyələnməklə qədəm qoymamasına da dəlalət edə bilər.

## Övlada münasibət

***Diaqram 2.2.***




Azərbaycanda son illərdə ölkə üzrə doğum səviyyəsinin aşağı düşməsi müşahidə olunur. Belə ki, çoxuşaqlı ailələrin sayının azalması və təkuşaqlıların sayının artması narahatlıq doğuran tendensiyalardandır. Təkuşaqlı ailələrin artmasının sosial-psixoloji səbəbləri də ön sıralardadır. Ailədə uşaqların sayının azalması ailənin reproduktiv və tərbiyə funksiyalarının birmənalı pozulmasına dəlalət edir.

Müasir dövrdə uşaq böyütmək, hərtərəfli təhsil vermək, gələcəyini təmin etmək çətindir. Belə olduqda əksər ailələr bir uşaqla kifayətlənir. Bu gün Azərbaycanda ailə strukturu uşaqların sayı baxı-

mından tamamilə fərqlidir. Təkuşaqlı ailədə uşaq valideynlərin əzizlədiyi yeganə qayğı və diqqət obyektinə çevrilir, bu da çox hallarda uşağın müstəqillik və yetkinlik şüurunun formalaşmasının gecikməsinə səbəb olur.

Öz növbəsində təkuşaqlı ailələrdə uşaqların sosiallaşması çətinləşir. Bu, xüsusən də məktəbəqədər yaşda uşaqların şəxsiyyətinin formalaşmasına böyük təsir göstərir. Tək böyüyən uşaqlar gələcəkdə nümunə kimi götürə biləcəyi ailədaxili ahəngdar şəxsiyyət münasibətləri modelinə sahib olmurlar. Belə sosiallaşma funksiyasının natamamlığı, pozulması şəraitində, ailənin uğurlu mövcudluğu üçün tələb olunan sosiallaşdırma rollarından biri yerinə yetirilmir, funksional boşluq yaranır.

Qeyd edilən məsələlər baxımından respondentlərə neçə övladları olması ilə bağlı mühüm sual ünvanlanıb. Diaqram 2.2.-dən göründüyü və gözlənildiyi kimi, sorğuda iştirak edən ailələrin əksəriyyətinin ən azı bir övladı var (96.8%). Bununla yanaşı, əhatə edilən ailələrin 24.5%-i 4, 22%-i isə 5 nəfərlik ailə tərkibinə malikdir. Ailələrin əsaslı hissəsi (72.8%) 10 ildən çox evli olduğu halda, 14.4%-nin evlilik müddəti 5-10 il arası dəyişir.

Təkuşaqlı ailələrin sayının artması demoqrafik perspektivlər baxımından hər bir ölkə üçün təhdid sayılacaq tendensiyadır.

## Ailə qurmağa, həyat yoldaşı seçiminə münasibət

Ailə həyatına hazırlıq bütöv bir təsəvvürlər sistemini - sosial-mənəvi, psixoloji, pedaqoji, hüquqi, təsərrüfat-iqtisadi, tibbi, fizioloji-gigiyenik hazırlığı əhatə edir. Nikaha daxil olmaq kimi ciddi qərar verən gənclərin dünyagörüşü həlledici əhəmiyyətə malikdir. Müasir ailə modelində ailə quranların fərdi seçimi üstün meylə çevrilib. Ailə qurmaq və boşanmaqla bağlı seçimlər də fərdi verilir. Boşanmaların sayının artmasında düşünülməmiş ailə qurmaq qərarını vermək də əhəmiyyətli yer tutur. “Sürətlə” qurulan ailələr tez dağılmağa meyilli olur.

Bu baxımdan ailə həyatına müstəqil hazırlıq və məqsədyönlü seçimlər həlledici yer tutur.

Rəyi öyrənilən respondentlərin

***Diaqram 2.3.***




10.6%-i evlənməmişdən əvvəl məntiq evliliyinə üstünlük verirdisə, 7.1%-i məhz bu üsulla da evlənib. Maraqlıdır ki, 5.5% respondent evlənməmişdən əvvəl görücü üsulu ilə evlilik arzusunda olsa da, təxminən 18% respondent məhz bu üsulla nikah qurub.

## Övladın ailə qurmasına münasibət

*Diaqram 2.4.*




Ailə, nikah, evlilik haqqında təsəvvürlər, ailə həyatına hazırlıq onun möhkəm olmasında əhəmiyyətli yer tutur. Gənclər tərəfindən ailənin sosial dəyərinin başa düşülməsində, nikaha ciddi münasibətdə, yaradılan ailəyə görə məsuliyyət hissində, həyat yoldaşını secməkdə, onun valideynlərinə münasibətdə və s.-də bu özünü göstərir.

Evlilik həyatına sosial-psixoloji hazırlıq ayrıca olaraq hər hansı “akademiya” bitirməklə deyil, ən çox valideynlərin qarşılıqlı münasibətləri, şəxsi davranışları ilə müəyyən olunur. Bu, nikah və ailənin psixoloji əsasları, nikaha daxil olanların ailə təsəvvürləri ilə bilavasitə bağlıdır.

Diaqramdan göründüyü kimi, “Özü sevib/tanıyıb qərar verməklə” cavabını seçən respondentlər (79.5%) gələcəkdə övladlarının da eyni üsulla evlənməsini arzu və tövsiyə edir. Bu göstəricilər müsbət olmaqla yanaşı, həm də ənənəvi evliliyə, nikaha daxil olma üsullarının sıradan çıxmasına işarə edir.

## Ailə üzvlərinin sayına münasibət

*Diaqram 2.5.*




Məlum olduğu kimi, ailənin sosial institut kimi tarixi transformasiyasının mərhələləri həm də ailə üzvlərinin sayının azalan dinamikası ilə səciyyələnmişdir. Ailə strukturunun, ailələrin qismən nuklear (nüvələşmə) meyili müasir ailə modelinə xas olan cəhətlərdəndir. Nuklear ailə valideyn və həddi-buluğa çatmamış uşaqların birgə yaşadığı ailədir. Boşanmalar nəticəsində binuklear ailə sayları da çoxalır. Ata-ana birgə olmasa da uşaqları ortaq böyüdə bilirlər.

Respondentlərin “Hal-hazırda evinizdə neçə nəfər yaşayır?” sualına cavabları da nuklear ailə modelinə keçid tendensiyasının üstünlüyünü göstərir. Belə ki, diaqramdan göründüyü kimi, respondentlərin 24.5%-i 4 nəfərlik və 22%-i isə 5 nəfərlik ailə üzvündən ibarət valideynlər və övladları olan nuklear ailə modelini seçiblər. Tarixən Azərbaycana xas olan 6 nəfərlik (16.7%) və 7 nəfərlik (14.7%) “geniş ailə modeli” getdikcə azalmaqdadır.

# Məişət fəaliyyəti. Vəzifələrin bölgüsü və qərar verməyə münasibət

*Diaqram 3.1.*




Vəzifələrin bölgüsü və qərarvermədə yeməkləri bişirmək və servis etmək cütlüklərin birlikdə ən az etdikləri məişət fəaliyyəti kimi (18.7%) qarşıya çıxır.

Lakin ailələrin 62.2%-də hər iki valideyn uşaqlarla oynamağa və onlarla vaxt keçirməyə eyni dərəcədə zaman ayırır.

Eləcə də, 58.9% respondentin fikrincə, uşaqların tərbiyəsi ilə hər iki valideyn məşğul olur.

Ailələrdə qərarvermədə hər iki tərəfin eyni dərəcədə ən çox iştirak etdiyi məsələ gələcək planların qurulması ilə bağlıdır (84.6%). Ailələrin 76.3%-də yeməklərin bişirilməsi yalnız qadınlar tərəfindən yerinə yetirilir.

Oxşar mənzərə yaşayış sahəsinin təmizlənməsi üzrə də müşahidə edilib (68.3%). Ailə üzvləri üçün bazarlığı əsasən kişilər edir (48.5%). Ailə təsərrüfatının idarə edilməsi də daha çox kişilərin üzərinə düşür (63.9%)

Qadınlar uşaqlara dərslərində kişilərə nisbətdə daha çox kömək edir. Belə ki, ailələrin 41.6.8%-də bu vəzifəni yalnız qadınlar yerinə yetirir. Bənzər hal övladların qidalanması və təmizlənməsi üzrə də müşahidə edilib (56.9%).

## Ailədə qəbul edilən qərarlara münasibət

Maraqlıdır ki, ənənəvi Azərbaycan ailəsində, adətən, müəyyən qərarların qəbul edilməsində əsas söz sahibi kişilər olurdu. Lakin aparılan sorğunun nəticələri bir daha göstərir ki, ənənəvi Azərbaycan ailə modeli müasir/modern ailə modelinə transformasiya-keçid mərhələsini yaşayır. Belə ki, ailədə alınan qərarlarda həm ata, həm də ana yaxından iştirak edir. Məsələn,ailə büdcəsinin idarə olunması (57.5%), bahalı əşyaların alınması (67.7%), asudə vaxtın təşkili (69.6%), gələcək planların qu-

*Diaqram 3.2.*




*Diaqram 3.3.*




*Diaqram 3.4.*




rulması (84.6%) və s. məsələlərdə valideynlərin hər ikisi birlikdə qərar verirlər.

Övladlarının sayı ilə bağlı qərarların qəbul edilməsində 48.7% ailədə hər iki valideyn birgə iştirak edib. 35.4% ailədə isə bu, plansız baş verib.

73.3% ailədə verilən qərarlara kənar müdaxilə olmasa da, 14.3% ailədə bu və ya digər tezlikdə, 12.1% ailədə isə nadir hallarda kənar təsirlər olur.

Övladların doğulma aralığı barədə qərarlar ailələrin 60.1%-də plansız baş verir. 23.4% ailədə isə bununla bağlı hər iki valideyn birgə qərar qəbul edir.

*Diaqram 3.5.*




Ailələrin əsaslı hissəsi (70.4%) kontraseptivlərdən (qoruyucular, preparatlar) heç vaxt istifadə etmədiyini bildirib. 7.3% respondent isə onlardan həmişə istifadə edir. Kontraseptivlərdən istifadə barədə yekun qərarı daha çox ailələrdə hər iki tərəf birlikdə versə də, yalnız bir tərəfin iştirak etdiyi qərarlarda əsasən qadınlar üstünlük təşkil edir. Şəhərlər və kəndlərdə kontraseptivlərdən istifadənin tezliyi qəsəbələrə nisbətdə əhəmiyyətli dərəcədə daha yüksəkdir (x=21.578 (6), p<0,05).

*Diaqram 3.6.*




*Diaqram 3.7.*




*Diaqram 3.8.*



# Ailənin iqtisadi qayğıları və problemləri

*Diaqram 4.1.*




*Diaqram 4.2.*




Ailələrin sabitliyi, ailədaxili münasibətlərin dayanıqlılığının artırılmasında sosial-psixoloji səbəblərlə yanaşı, maddi və sosial-iqtisadi amillər həlledici rola malikdir. Bu baxımdan respondentlərə “Hazırda ailənizin krediti, yaxud borcu varmı?” sualı ünvanlanıb. Rəyi öyrənilənlərin yarısından bir az çoxunun (54.4%) ödəməli olduğu kredit, 28.3%-nin isə ödəməli olduğu borcu var. 25% ailə isə kənar şəxsə borc verdiyini bildirib.

Borc verməyənlərin sayının 75.0% olması yüksək rəqəm olub, ailələrin maddi vəziyyətinin borc verəcək səviyyədə olmadığını göstərir.

*Diaqram 4.3.*



Respondentlərə müxtəlif istiqamətlərdə - "Ərzaq xərcləri"; "Övladların xərcləri"; "Nəqliyyat xərcləri"; "Kirayə xərcləri"; "Kommunal ödənişlər"; "Geyim xərcləri"; "Rabitə (telefon, internet) xərcləri"; "Sağlamlıq/dərman xərcləri"; "İstirahət xərcləri"; "Özünəqulluq xərcləri" və s. nə kimi çətinlik çəkmələri ilə bağlı suallar verilib.

Diaqram 4.3-dən göründüyü kimi, demək olar ki, hər üç ailədən biri ərzaq xərcləri, övladların xərcləri, kommunal ödənişlər və istirahət xərclərinin təminatında çox çətinlik çəkir. Kirayədə yaşayanların (ümumi seçmənin 8.4%-i) yarısından çoxu kirayə ödəməkdə bu və ya digər dərəcədə problemlər yaşayır. Ödənilməsi ən rahat xərc istiqaməti kimi rabitə (telefon, internet) xərcləri diqqət çəkir. 48.6% bu mənada heç bir çətinlik çəkmir.

Ailələrin böyük əksəriyyəti (80.4%) hər ay qazancdan kənara yığım kimi heç bir vəsait qoya bilmir. 101-500 manat vəsait qoya bilənlər üçün isə bu göstərici 7.7%-ə bərabərdir. Maraqlıdır ki, aylıq gəliri 1-500 manat arası olan ailələrin 80%-ə yaxın hissəsində ərzaq xərclərinin təminatı çox və ya müəyyən qədər çətin olsa da, aylıq gəliri 501 manatdan yuxarı olan ailələrdə analoji göstərici 45%-ə bərabərdir.

Ən çox çətinliklərin "Sağlamılıq xərcləri" (35.7%) istiqamətində olması ailələrlə bağlı problemlər aspektində olduqca arzuolunmaz haldır. "Sağlam ailə sağlam cəmiyyətin təməlidir" deyimi əsas götürülərsə, ailələrin sağlamlıqla bağlı maddi çətinliklərinin ilk sırada yer alması, həm də "çox" çətinlik hiss etməsi bu sahəyə diqqət yetirilməsini gündəmə gətirir.

Sonrakı yerlərdə eyni faiz nisbəti ilə "Ərzaq xərcləri" (30.8%), "Övladların xərcləri" və "Kommunal xərclər" (hər ikisi - 30.6%) gəlir. Daha sonra istirahət xərcləri və nəqliyyat xərcləri sıralanır.

Bəs Azərbaycan ailəsinin gəlir səviyyəsi və əsas xərc istiqamətləri nələrdir? Rəyi öyrənilənlərin 35.5%-nin aylıq gəlir səviyyəsi (ailə olaraq) 1-250 manat, 35%-nin isə 251-500 manat arası dəyişir. Hər dörd ailədən birinin aylıq gəliri 501-1000 manat olduğu halda, cəmi 4.7% ailə 1001 manatdan artıq gəlir əldə edir. Ailələrin üçdə ikisində hər iki tərəf müxtəlif formalarda (əməkhaqqı, müavinət və s.) gəlir əldə edir. Övlad müstəvisində isə ailələrin 17.7%-də oğlanlar gəlir əldə edirsə, qızlar üçün bu göstərici cəmi 3.5% təşkil edir. 83.1% ailələrdə kişi ailəyə ən çox gəlir gətirən şəxsdir. Əsas xərc istiqamətləri kimi ərzaq məhsulları (orta dəyər = 353.19 manat, σ[47] =200.60 manat), təhsil xərcləri (233.44 manat, σ=286.73 manat), dərman və sağlamlıq xərcləri (213.23 manat, σ=507.30 manat) seçilib. Əksər insanların gündəlik istifadə etdiyi nəqliyyata və kommunal xidmətlərə isə müvafiq olaraq orta aylıq xərc 161.53 manat (σ=156.40 manat) və 98.9 manat (σ= 72,7 manat) təşkil edib.

***Diaqram 4.4.***




İşləyən valideynlərin faiz nisbəti respondentlər arasında çoxluq təşkil edib. Rəyi soruşulanların 86.8%-nin gəlir mənbəyi kişi valideyn, 41.8%-i qadın valideyn olduğu məlum olur.

*Diaqram 4.5.*




*Diaqram 4.6.*




Aylıq əməkhaqqı (dövlət sektoru) (50.3%), müavinətlər (35.5%) və günəmuzd gəlir (iş olandan olana işləmək) (27%) ailələr üzrə ən geniş yayılmış üç gəlir mənbəyidir. Burada günəmuzd gəlirin mövcud olduğu ailələrin olduqca yüksək faizi narahatedici məqam kimi qarşıya çıxır. Cəmi təxminən 25% ailədə özəl sektorda çalışan, yaxud sahibkarlıqla məşğul olan şəxs yaşayır. Sahibkarlıqla məşğul olanların 25.7%-nin biznes subyekti rəsmi qeydiyyatdan keçməyib ki, bu da kölgə iqtisadiyyatının həcmindən müəyyən dərəcədə xəbər verir. Dövlət sektoru və özəl sektorda, eləcə də frilans qaydada işləyənlərin 21.9%-nin əmək müqaviləsi yoxdur.

*Diaqram 4.7.*




*Diaqram 4.8.*



***Diaqram 4.9.***




***Diaqram 4.10.***




Ailələrin möhkəmliyinin təmin edilməsində “iş-ailə balansının qorunması” məlum olduğu kimi bütün inkişaf etmiş ölkələrdə ailə mərkəzli sosial dəstək siyasətinin əsasını təşkil edir. Diaqram 4.10-da bu balansın qorunmasının çətinlikləri özünü göstərir.

Tərəflərdən ən azı birinin işlədiyi ailələrin demək olar ki, 20%-də işlərində yaşanan çətinliklər ailədəki münasibətlərinə bu və ya digər tezlikdə təsir edir. Ailələrin ən azı 25%-də tərəflərdən biri iş və ailə həyatı arasındakı balansı tam qoruya bilir. Təxminən hər altı ailədən birində isə iş amili tərəflərdən ən azı birinə ailəsi ilə kifayət qədər vaxt keçirməyə imkan vermir.

***Diaqram 4.11.***



***Diaqram 4.12.***




Ailələrin 63.6%-i maddi vəziyyətinə görə özünü orta, 35.4%-i isə aşağı sosial statuslu ailə sayır. Burada maraqlı bir göstəricini də diqqətə çatdırmaq yerinə düşərdi. Sosial Tədqiqatlar Mərkəzinin son dövrlərdə apardığı sorğularda "Özünüzü hansı sosial təbəqəyə aid edirsiniz?" sualına bir qayda olaraq respondentlərin 60%-dən çoxu "orta təbəqə" cavabını verib. Bu isə əhalinin özünün sosial statusunun qiymətləndirməsində əsas amilin gəlir səviyyəsi olduğunu göstərir.

***Diaqram 4.13.***




Son 3 ildə 47.8% ailənin gəlir səviyyəsində azalma müşahidə edildiyi halda, 33.8% üçün bu dəyişilməz qalıb. Pandemiya şəraitində gəlirlərin azaldığı ailələrin çəkisinin yüksək olması müəyyən qədər anlaşılandır. Gəlirinin artdığını deyən 18.4% respondentin 74%-də bu dəyişiklik ailə münasibətlərinə müsbət təsir etdiyi halda, gəlir səviyyəsində azalma müşahidə edənlərin 38.1%-i bu amilin ailə münasibətlərinə mənfi təsir etdiyini bildirib.

***Diaqram 4.14.***




Sorğuda iştirak edən ailələrin demək olar ki, 2/3-si yaxın 3 il üçün maddi durumları barədə əsasən və ya tamamilə narahatdır ki, bu da ciddi stress mənbəyi hesab edilə bilər. Gözlənildiyi kimi, özünü orta və yuxarı gəlir qrupuna aid edən ailələrin narahatlıq dərəcəsi özünü aşağı gəlir qrupuna aid edənlərə nisbətdə əhəmiyyətli dərəcədə aşağıdır (x=264.189 (8), p<0,01).

*Diaqram 4.15.*




Respondentlərin “Ailə büdcəsinin istifadəsinə dair qərarı əsasən kim/kimlər verir?” sualına cavabında ənənəvi ailə modelində olduğu kimi 80.8%-də qərarların kişilər tərəfindən verildiyi məlum olur. Qadınların yalnız 52.8%-i qərarvermədə iştirak edir.

## V BÖLMƏ.

# Ailə həyatının sosial-mədəni fəaliyyət istiqaməti

*Diaqram 5.1.*




*Diaqram 5.2.*




*Diaqram 5.3.*




Ailə olaraq sorğuda iştirak edənlərin daha çox hissəsi (42.5%) pandemiyadan əvvəl evdən kənarda (restorana, rayona, gəzintiyə getmək və s.) vaxt keçirmədiyini bildirib ki, bu da narahatedici məqamdır. Cəmi 19.8% respondent ayda bir neçə dəfə ailə olaraq evdən kənarda vaxt keçirib. Təsadüfi deyil ki, 81% ailə evdən kənarda daha çox vaxt keçirmək istədiyini bildirib. Əhalinin evdən kənarda istədiyi qədər vaxt keçirməməsinin

başlıca iki səbəbi müəyyənləşib: maddi durum (75.3%) və vaxt qıtlığı (23.1%).

Respondentlərin təxminən 40.3%-i pandemiyadan öncə ailə olaraq asudə vaxtını televizora baxaraq və gəzintiyə çıxaraq (39.7) keçirirdisə, 16.8% evdən kənarda asudə vaxt keçirmədiyini bildirib. 3.5% respondent getməyə yer olmamasından şikayətlənib.

Özünü orta gəlir qrupuna aid edən ailələrin təxminən 30%-i həftədə, yaxud ayda bir neçə dəfə evdən kənarda vaxt keçirdiyi halda, özünü aşağı gəlir qrupuna aid edənlər üçün bu göstərici 20% təşkil edib. Başqa sözlə, gəlir qrupu ilə evdən kənarda keçirilən vaxt arasında korrelyasiya mövcuddur (x=31.900 (8) p<0,01).

Şəhərdə məskunlaşan ailələrin 8.3%-i pandemiyadan əvvəl həftədə bir neçə dəfə evdən kənarda vaxt keçirirdisə, kənd ailələri üçün bu göstərici 3.7% təşkil edir. Kənd əhalisinin yarısı pandemiyadan əvvəl ailə olaraq evdən kənarda heç vaxt keçirmədiyini deyib ki, bu da şəhər və qəsəbələrə nisbətdə 15% daha yüksəkdir (x=33.877 (8), p<0,01)

***Diaqram 5.4.***




Sorğuda iştirak edən respondent ailələrinin əsaslı hissəsi (80.4%) hər ay qazancdan kənara yığım kimi heç bir vəsait qoya bilmir. Bu göstərici real mənzərənin mürəkkəb olmasını ifadə edir. Yalnız gündəlik güzəran xərcləri üçün çalışan ailənin öz övladları üçün gələcək planlar qurması, başqa ailə strategiyası planlaması qeyri-mümkündür. Bu vəziyyət ailələrə gələcəyə nikbin baxmağa əsas verən amillər sırasında deyil.

# Ailənin potensial problem və stress mənbələri

***Diaqram 6.1.***




41.8% ailədə heç bir məsələyə görə problemlər yaranmasa da, problem yaradan başlıca amil kimi maddi sıxıntılar (36.9%) irəli çıxır. Qeyri-maddi amillər arasında isə uşaqla bağlı məsələlərdəki anlaşılmazlığa (9.9%) və tərəflərin birinin digərini qısqanmasına (8.9%) görə yaranan problemlər üstünlük təşkil edir. Şəhər və kənd ailələrinin müvafiq olaraq 36% və 39%-də maddi narahatlıqlar ucbatından problem yaranır. Digər ailə üzvlərinin (qayınana/qayınata) müdaxiləsinə görə daha çox qəsəbələrdə yaşayan ailələrdə problemlər ortaya çıxır.

***Diaqram 6.2.***




Ailələrin 49%-də ən azı bir nəfər siqaret çəkir və 16%-də isə alkoqollu içki qəbul edir. Zərərli vərdişlər arasında siqaret çəkmək daha çox yayılıb.

*Diaqram 6.3.*




II Qarabağ müharibəsi sorğuda iştirak edən ailələrin yarısına - 50.3%-nə mənfi təsir göstərib. Ailələrin mövcud problemlərinin üstünə Vətən müharibəsi nəticəsində şəhid, əlil və qazi olanların problemlərinin də əlavə olunması ailəyə sosial dəstək proqramlarında ən həssas məsələ kimi qarşıda durur. Aylıq gəliri 251-500 manat arası dəyişən ailələrin arasında müharibədən mənfi təsirlənənlər digər gəlir qrupları ilə müqayisədə daha çoxdur (x=25.486 (4), p<0,01).

Müharibədən heç bir təsir görməyənlərin çəkisi 20.1% təşkil edib.

*Diaqram 6.4.*




COVID-19 pandemiyasından 23.9% ailə zərər çəkməsə də, ailələrin 38.6% -də maddi və 48.9%-də psixoloji təsirlər müşahidə edilib ki, bu da respondentlərin kifayət qədər hissəsini əhatə edir.

# Boşanmalara münasibət

*Diaqram 7.1.*




Sorğuda iştirak edən ailələrdən ətraflarında müşahidə etdikləri boşanma hallarının miqyası və səbəbləri soruşulub. Yaşadığınız ərazidəki ailələr arasında çox və ya müəyyən qədər boşanmanın olduğunu deyənlər cəmi 28.7% təşkil edib. Analoji göstərici dost və tanışlar, qohumlar və öz ailə üzvləri üçün 0.1-13.5% arası dəyişir. Heç bir boşanma halı müşahidə etməyənlərin çəkisi yaxınlıq dərəcəsinə görə 40.5%-89.6% arasıdır.

*Diaqram 7.2.*




Boşanmaların motivləri kimi maddi səbəblər, xəyanət və uşağın olmaması (sonsuzluq) amilləri demək olar ki, eyni göstəriciyə malikdir (22% civarındadır). İkinci və üçüncü yerlədə müvafiq olaraq zərərli vərdişlərə aludə olmaq (16.5%) və sosial şəbəkələrin təsiri (11.5%) gəlir. 55.4% respondent boşanmış fərdlərin mövcud vəziyyəti barədə məlumatsız

olsa da, 19.1% bildirib ki, kişilər yalnız aliment verməklə kifayətlənir.

***Diaqram 7.3.***




Respondentlərin daha çox hissəsi xəyanət zəminindəki boşanmalarda boşanmaq təşəbbüsü göstərən tərəfə haqq qazandırdığını bildirib. Belə ki, "ər arvada xəyanət etdikdə" variantı 45.7%, "arvad ərinə xəyanət etdikdə" variantı isə 52.5% respondent tərəfindən seçilib. Hər on respondentdən biri tərəflərin heç bir halda boşanmamalı olduğunu qeyd edib. 28.4% respondent ailədə ər-arvad arasında zorakılıq halı olduqda boşanmağın düzgün qərar olduğunu düşünür.

Sadalanan səbəblər sırasında maddi amillər yer almadığı üçün ailədaxili münasibətlərdə boşanmaların sosial-psixoloji əsaslardan qaynaqlandığını görmək mümkündür. Bu göstəricilər ənənəvi ailə dəyərlərinin qorunması və təbliğinin vacibliyini bir daha ortaya çıxarır.

***Diaqram 7.4.***




Sualı cavablandıran respondentlər boşanan ailələrin vəziyyətinin yaxşı olmadğını, hətta acınacaqlı olmasını, ataların ümumiyyətlə heç bir məsuliyyət hiss etmədiklərini, ailə ilə maraqlanmadığını bildiriblər. Boşanmaların

artma tendensiyasının müşahidə edildiyi hazırkı dövrdə getdikcə çoxalan belə ailələrin vəziyyətini təsəvvür etmək çətin deyil.

***Diaqram 7.5.***




Respondentlər hesab edir ki, nikah müqaviləsi daha çox qadınların hüquqlarını qoruyur. Eyni zamanda, nikah müqaviləsinin ailə quran cütlüklərə sosial-psixoloji baxımdan mənfi təsir etdiyi də bildirilir. Respondentlərin "Evliliyin daha uzun müddət davam etməsini təhlükəyə atır"; "İnsanların bir-birinə inamsızlığının göstəricisidir"; "Tərəflər əmlakını rəsmiləşdirmədiyi üçün müqavilənin əhəmiyyəti yoxdur" kimi cavabları ailədə güvən və inamın əsas olmasını göstərir, ənənəvi ailə modelində liberal qayda və yeniliklərin həlledici əhəmiyyətə malik olduğunu sübut edir.

***Diaqram 7.6.***




Rəyi soruşulanlar arasında 45.9% respondent mediasiya xidmətinin yaradılması barədə məlumatsız olsa da, 33.8% müsbət gözləntiyə malikdir. Bu göstərici mediasiya xidmətinin təsisi ilə bağlı maarifləndirməyə ehtiyac olduğunu göstərir. Qəsəbələrdə yaşayanların 17.3%-i bu haqda heç bir məlumatı olmasa da, şəhər və kəndlərdə məlumatsızlıq səviyyəsi müvafiq olaraq 35% və 47%-ə bərabərdir. Mediasiya xidməti barədə müsbət gözləntiyə malik ailələrin 41.7% və 45.3%-i müvafiq olaraq şəhər və kəndlərdə yaşayır (21.764 (8), p<0,05)

***Diaqram 7.7.***



***Diaqram 7.8.***




***Diaqram 7.9.***




33% respondent ailələrimizdə qadın hüquqlarının tam, 53.1% isə qismən qorunduğunu düşünür.

Respondentlərin 28.4%-i yaşadığı ərazidə ailədaxili zorakılıq (məişət zorakılığı) hallarını müxtəlif tezliklə müşahidə edir. Bu halı dost-tanışlar və qohumları arasında müşahidə edənlər 20% civarındadır.

***Diaqram 7.10.***




Respondentlərdən 3 aspektdə ailədaxili məişət zorakılığı halları ilə rastlaşdığı soruşulub: Yaşadığınız ərazidə ailədaxili zorakılıq (məişət zorakılığı) hallarını hansı tezlikdə müşahidə edirsiniz? Dost/tanışlarınız arasında ailədaxili zorakılıq (məişət zorakılığı) hallarını hansı tezlikdə müşahidə edirsiniz? Qohumlarınız arasında ailədaxili zorakılıq (məişət zorakılığı) hallarını hansı tezlikdə müşahidə edirsiniz?

Rəyi soruşulanların 68.2%-i yaşadığı ərazidə, 75.3%-i dost-tanışların, 76,8%-i qohumların arasında belə hallara heç vaxt rast gəlmədiyini bildirib. Müvafiq olaraq, zorakılıq hallarına tez-tez rast gələnlərin sayı yaşadığı ərazidə 4,1%, dost/tanışlar arasında 2,2% və qohumlar arasında 1,9% təşkil edib. Nisbi faizlə zorakılıq hallarına yaşadığı ərazidə tez-tez rast gəlindiyi məlum olub.

***Diaqram 7.11.***




Respondentlərdən “Kişi və ya qadın boşandıqda və ya dul qaldıqda ikinci dəfə evlənə bilərmi?” fikirlərinə münasibət bildirmələri xahiş edilib. “Kişi boşandıqda və ya dul qaldıqda ikinci dəfə evlənə bilər” fikri ilə respondentlərin 87%-i müxtəlif dərəcələrdə razıdır. Lakin eyni halın qadınlar üçün məqbul olduğunu hesab edənlər 69%-ə bərabərdir.

Qadınların yenidən ailə qurmasına “heç razı deyiləm” cavablarının sayı kişilərlə müqayisədə (11.7%) daha çox - 28.8% təşkil edib.

***Diaqram 7.12.***




"Aramızda mübahisə, anlaşılmazlıq olduqda həyat yoldaşıma əl qaldıra bilərəm fikri ilə nə dərəcədə razısınız?" sualına cavab kimi kişi respondentlərin 2.8%-i tam, 10%-i qismən razı, 86.7%-i heç razı deyil. Qadınların “Aramızda mübahisə, anlaşılmazlıq olduqda həyat yoldaşım mənə əl qaldıra bilər?" fikri ilə 1.9.%-i tam, 8.6%-i qismən razı, 89.3%-i heç razı deyil. Müqayisə edildikdə “əl qaldırmağa tam və qismən razı olan” kişilərin sayı qadınların sayından çoxdur. Bu da zorakılıqla bağlı təsəvvürlərdə gender fərqinin olduğunu aşkara çıxarır.

***Diaqram 7.13.***




Respondentlərə yaşadıqları ərazidə və qohumları arasında qızların 18 yaşına çatmamış evləndirilməsi hallarının olub-olmaması, başvermə tezliyi barədə suallar ünvanlanıb. Yaşadıqları ərazidə sözügedən evləndirmə hallarının tez-tez baş verdiyini 10,8%, bəzən baş verdiyini 30,5%, heç vaxt baş vermədiyini 38,1% respondent bildirib. İlk iki cavabın toplam faizi belə halların hiss ediləcək dərəcədə olmasını göstərir.

Seçmə daxilində bu halın daha yüksək tezliklə müşahidə edildiyi ərazilər kimi Bakı və Aran iqtisadi rayonları diqqət çəkir. Eyni halın qohumlar arasında tez-tez olduğunu deyənlərin çəkisi isə 4.8% təşkil edib.

*Diaqram 7.14.*




Erkən nikahlara münasibətin öyrənilməsi məqsədilə respondentlərə “Qızların 18 yaşına çatmamış evləndirilməsi” və “Oğlanların 18 yaşına çatmamış evləndirilməsi” ilə bağlı sullar verilib. Respondentlərin mütləq əksəriyyəti - 91.1%-i qızların, 94.3%-i isə oğlanların erkən evləndirilməsinə pis baxır. Qızların tez evləndirilməsinə “yaxşı baxıram” cavabını verənlərin sayı 3,2%, oğlanların 18 yaşdan tez evləndirilməsinə yaxşı baxanların faizi isə 1.9% olub. Ümumilikdə erkən nikahlarla bağlı rəyi soruşulanların ənənəvi təsəvvürlərində dəyişikliyin olması bu adətlərə mənfi yanaşmanın formalaşdığını aşkara çıxarır.

# Azərbaycanda ailə, qadın və uşaq münasibətlərini tənzimləyən qurumlarla bağlı məlumatlılıq və müraciət

*Diaqram 8.1.*




Ailələrin 2/3-nin Azərbaycanda ailə, qadın və uşaq münasibətlərini tənzimləyən, onların problemləri ilə məşğul olan qurumların olması ilə bağlı məlumatı yoxdur.

Maraqlı məqamdır ki, 33.6% respondent ailəsində baş verə biləcək böhran vəziyyəti barədə heç bir yerə müraciət etməyəcəyini deyib. 27.8% respondent qohuma, 6.9% polisə, 3.1% müvafiq qurumlara müraciət edəcəyini bildirib.

*Diaqram 8.2.*




Müraciət etməyənlərin gətirdiyi əsas iki səbəb qarşıya çıxıb - kənar şəxslərin ailəmə müdaxilə etməsini istəmirəm (21.2%) və lazım bilməmişəm (59.5%).

*Diaqram 8.3.*




Diaqramdan göründüyü kimi, son 3 ildə respondentlərin əksəriyyəti ailə məsələləri ilə bağlı heç bir quruma müraciət etməyib.

## IX BÖLMƏ.

# Ailədə valideyn-övlad münasibətləri

***Diaqram 9.1.***




Diaqramdan göründüyü kimi, 60.4% respondent övladına qarşı olan öhdəliklərini tam, 36.4% isə qismən yerinə yetirir. Valideyn öhdəliklərini qismən yerinə yetirən respondentlərin sayının hiss ediləcək dərəcədə çox (36,4%) olması narahatedici hesab edilə bilər.

***Diaqram 9.2.***




"Övladımın uğur və ya uğursuzluqları bir valideyn kimi mənim öhdəliklərimi necə yerinə yetirməyimi göstərir" fikri ilə nə dərəcədə razısınız?" fikri ilə 66.7% valideyn tam, 22.8% isə qismən razıdır.

***Diaqram 9.3.***




Valideyn və övlad münasibətlərinə ictimai rəyin öyrənilməsi məqsədilə respondentlərə verilən suallar onların uşaqların tərbiyəsində hansı metodlara üstünlük verməsi barədə təsəvvür yaradır. "Övladlarının tərbiyəsində daha çox onlarla ünsiyyətə, yoxsa sərt rəftara üstünlük verirsiniz?" sualına cavabda ünsiyyətə üstünlük verənlər faiz nisbəti ilə çoxluq təşkil edir.

Bununla yanaşı, əksər valideynlər övladlarının tərbiyəsində əsasən onlarla ünsiyyətə üstünlük verirsə, 85.2% lazım gəldikdə sərt ola bilir. Həmçinin, 71.3% valideyn övladlarının tərbiyəsində valideynlərindən gördüklərini tətbiq edir. Qeyd edək ki, respondentlərə bir neçə cavab variantını seçmək imkanı verilib.

*Diaqram 9.4.*




Qeyd edildiyi kimi, "Vəzifələrin bölgüsü və qərarverməyə münasibət" bölməsində bir sıra göstəricilərdə qadınlar kişilərlə müqayisədə üstünlük təşkil edirdi. Məsələn, qadınların uşaqlara dərslərində kişilərə nisbətdə daha çox kömək etməsi kifayət qədər yüksək rəqəm (41.6%) olub. Eyni hal övladların qidalanması və təmizliyi üzrə də müşahidə edilib (56.9%).

Diaqramdan göründüyü kimi, övladların tərbiyəsində də qadınların üstünlüyü (91.6%) kişilərlə müqayisədə çoxdur (67.7%), demək olar ki, 20%-ə yaxın yuxarıdır. Bu vəziyyət ailədə uşaqların tərbiyə və təhsilində qadınların tutduğu müstəsna əhəmiyyəti göstərməklə, onların "ailə-iş münasibətləri" balansının təmin edilməsini dövlət ailə siyasətinin strateji məsələsinə çevirir.

*Diaqram 9.5.*




Sorğuda iştirak edən ailələrin əksəriyyəti ailəsindən müxtəlif dərəcələrdə məmnundur Respondentlərin 70.6%-i ailə həyatından çox, 25.7%-i qismən məmnundur. Heç məmnun olmayanların sayı 3.8%-dir. Bu və qismən məmnun olan ailəli insanların sayı toplam olaraq götürüldükdə hissediləcək dərəcədədir.

*Diaqram 9.6.*




Respondentlərdən ailələrə dəstək tədbirləri barədə də soruşulub. Əksər tədbirlərin onlara aid olmadığı, yaxud ailələrin ondan yararlanmadıqları müəyyən edilib. Lakin yeni doğulan uşaqlara görə birdəfəlik ödənişdən 49.7% respondent yararlanıb ki, onların da məmnuniyyət səviyyələri müxtəlif dərəcələrdə olub. Uşaq müavinətləri (60%) və aztəminatlı ailələrə maddi dəstək (53.1%) ən çox arzu edilən iki sosial dəstək tədbiri kimi qarşıya çıxır.

***Diaqram 9.7.***




Göründüyü kimi, cəmiyyətdə “uşaq pulu” kimi müzakirə edilən məsələ respondentlər arasında da əksini tapıb. Onlar bu sosial dəstək formasının lazımlı olduğunu bildiriblər.

***Diaqram 9.8.***




Məlum olduğu kimi, bir çox ölkələrdə övlada mənfi və qanundankənar, qəddarlıqla müqayisə ediləcək dərəcədə münasibət göstərilən ailələrə sosial işçilərin birbaşa müdaxilə haqqı, uşaqları müvəqqəti olaraq ailədən çıxarmaq, uşaq sığınacağına yerləşdirmək və s. var.

Diaqramdan göründüyü kimi, rəyi soruşulanların 53%-nin belə bir hüququn ölkəmizdə də tətbiq edilməsini mümkün sayması maraqlı göstərici hesab edilə bilər.

***Diaqram 9.9.***




Ailələrin təxminən 15%-də dini dəyərlərin əhəmiyyəti olmasa da, 26.6% respondent həyatını dini dəyərlər üzərində qurduğunu bildirib. Deməli, ailələrin yarısı dini və dünyəvi dəyərləri uyğunlaşdırmağa çalışır. “Sizin ailə həyatınızda dini dəyərlərin əhəmiyyəti hansı səviyyədədir?” sualına cavabda hər iki dəyəri uyğunlaşdırmağa çalışanlar 48.7%-dir ki, bu da toplam 70%-dən çox əhalinin ailə dəyərləri ilə dini dəyərlər arasında bağlılıq görməsi deməkdir.

Sorğu gedişində 80.7% respondent "Ailə dəyərləri orta məktəbdə tədris olunmalıdır" fikri ilə tam razı olduğu halda, reproduktiv sağlamlıqla bağlı analoji göstərici daha az - 50.8%-dir. Respondentlərin cəmiyyətdə “Orta məktəbdə ailə dəyərləri, reproduktiv sağlamlıq, yoxsa cinsi tərbiyə tədris edilməlidir?" mövzusunda müzakirələrə cavabı “ailə tərbiyəsi” olmuşdur.

# Ekspert sorğusu-dərinləşdirilmiş müsahibələrin nəticələri

Qeyd olunduğu kimi, tədqiqat çərçivəsində məlumat toplama metodu olaraq dərinləşdirilmiş müsahibələrdən istifadə edilib. Respondentlərin seçilməsində təsadüfi olmayan "kvota" seçməsi metodundan istifadə edilərək, müxtəlif sahələrdə çalışan və ixtisaslaşan ekspertlər qrupu müəyyən edilib. Bu seçmə yanaşmasında öncədən müəyyən edilmiş meyarlar üzrə elementlər (respondentlər) seçilir. Belə ki, dərinləşdirilmiş müsahibələrdə 27 respondent iştirak edib ki, onların da bölgüsü aşağıdakı kimi olub;

- Vəkil və hüquqşünas (9 respondent)
- Qeyri-hökumət təşkilatı rəhbəri (5 respondent)
- Sosioloq və psixoloq (6 respondent)
- Dövlət məmuru [5] (3 respondent)
- Digər [6] (4 respondent)

Müxtəlif sahələrdə çalışan və ixtisaslaşan ekspertlər qrupu ilə dərinləşdirilmiş müsahibələrin aparılması ilə ailə məsələlərinin çoxsaylı cəhətlərinə və problemlərinə müxtəlif baxış bucaqlarının öyrənilməsi təmin edilib. Nəzərə çatdıraq ki, keyfiyyət tədqiqatlarında, adətən, 30-35 nəfərin iştirakı ilə araşdırmalar aparılır, ancaq minimum hədd kimi 5-10 nəfər qəbul edilir. [7]

Bütün dərinləşdirilmiş müsahibələr telefon zəngi vasitəsilə aparılıb. Etik prinsipləri gözləyərək, hər bir müsahibədən öncə respondentdən onunla söhbətin səsyazmasının aparılması üçün icazə alınıb. Müsahibələr başa çatdıqdan sonra səsyazma əsasında transkript hazırlanıb. Analiz prosesi başa çatdıqda səsyazmalar diktofon və kompüterlərin yaddaşından silinib.

Nəticələrin təhlilində "Nvivo" proqramından istifadə edilib. Bu proqramın əsas üstünlüyü ondan ibarətdir ki, çoxsaylı transkriptlər arasında açar sözlər üzrə sürətli axtarışı təmin edərək, tədqiqat suallarının cavablandırılması üçün əsas məsələləri müəyyən edir. Analiz metodu olaraq tematik analizdən istifadə edilib. Braun və Klarka əsasən, tematik (mövzu üzrə) təhlil "toplanan informasiyanın mövzulara görə təsnifatlandırılaraq hadisələr, proseslər, verilən cavablar və nəticələr arasındakı əlaqələrin müəyyən edilməsi üçün istifadə edilən təhlil metodudur".[8] Analiz prosesi çərçivəsində hazırlanan transkriptlər açıq üsulla kodlaşdırılıb.

Hesabatda müvafiq yerlərdə respondentlərin çıxışlarından sitatlar təqdim edilib. Sitatların təqdimatında respondentə dair bütün demoqrafik məlumatlar gizli saxlanılaraq, yalnız onun çalışdığı sahə və ya ixtisası təqdim edilib.

[5] "Dövlət məmuru" qrupuna aid olanlar yerli və mərkəzi icra hakimiyyətlərində tədqiqat mözusu sahəsində müxtəlif səviyyələrdə təmsil olunan şəxslər olub.

[6] "Digər" qrupuna aid olan şəxslər jurnalistlər və siyasətşünas olub.

[7] Bryman A. Social Research Methods. Oxford, Oxford University Press, 2012; Silverman D. Doing Qualitative Research: A Practical Handbook. UK, SAGE, 2013

[8] Braun, V. and Clarke, V. (2006, p.6) Using thematic analysis in psychology. Qualitative Research in Psychology, 3 (2). pp. 77-101.

## NƏTİCƏLƏR

Təsviri təhlilin ilkin mərhələsində hər bir sual üzrə müşahidə edilən əsas cavablar və səsləndirilən məqamların sürətli hesablanması aparılıb. Beləliklə, ümumilikdə respondentlər tərəfindən ən çox aşağıdakı məsələlərə toxunulub;

- Uşaqların sayının azalması (17 dəfə);
- Sosial şəbəkələrin ailə dəyərlərinə mənfi təsiri (15 dəfə);
- Ailə institutunun gücləndirilməsi (14 dəfə);
- Mediasiya xidmətindən müsbət gözləntilər (13 dəfə);
- Ailə quran gənclərin müasirləşməsi (12 dəfə);
- Şəhər və kənd yerlərində ailə xüsusiyyətlərində fərq (11 dəfə).

### Boşanmaların artması

Demək olar ki, bütün müsahiblər (4-ü istisna olmaqla) boşanmaların artmasının səbəbləri barədə ətraflı danışıb. Səbəbləri iki qrupa – maddi və qeyri-maddi amillərə bölmək olar. İlk olaraq, maddi amillərə nəzər yetirək. 13 respondent işsizlik, ailə başçısının aşağı gəlir səviyyəsi və uşaqların maddi yükünün qarşılana bilməməsini boşanmaların başlıca səbəbi kimi görür. Hətta 2 respondent qadının işləmək istəyinin (maddi durumu yaxşılaşdırmaq naminə) tərəflər arasında ciddi münaqişəyə səbəb olduğunu müşahidə etdiyini bildirib. Buna bənzər olaraq, 3 respondent qadının dəyişən statusunu (öz hüquqlarını bilməsi, iqtisadi baxımdan sərbəstlik qazanmaq imkanları, evlənmədən yaşamaq düşüncəsinin əvvəlki dövrlərə nisbətdə daha geniş yayılması) boşanmaların artmasının səbəbləri arasında görür.

Respondentlərin 24-ü isə (onlardan bəziləri maddi səbəbləri də dilə gətirib) qeyri-maddi amillərin boşanmaya əsas verdiyini düşünür. 3 respondent gənc ailələrin özlərini psixoloji hazırlıqlı hiss etməməsini və əvvəlki dövrlərdə ailə quran cütlüklərə nisbətdə daha təmkinsiz və səbrsiz olmalarını qabardıb. 4 respondent cütlüyün valideynlərinin müdaxiləsini, 5 respondent tərəflərin məsuliyyət götürməkdən qaçmasını, 5 respondent Qərb dəyərlərini və onların media vasitəsilə təbliğini, 3 respondent isə ödənilməyən cinsi tələbatı boşanmaların artmasının səbəbləri kimi qeyd edir.

*"Valideynlərin təzyiqi və müdaxiləsi ilə evlənənlər arasında boşanmalar üstünlük təşkil edir". /Aytən Alməmmədova, jurnalist/*

*"Ailə qayğıları və məsuliyyətinin üstlənməsi ilə bağlı gələcəkdə yarana biləcək çətinliklərin öncədən dərk edilməməsi və hazırlıqsız vəziyyət nikah yaşına qədəm qoyan andan ailə qurulmasına qərar verənlər üçün bəzi hallarda ciddi problem yaradan amilə çevrilir". /Elvin Muradov, sosial işçi/*

*"Gənclər özləri öz qərarları ilə ailə qururlar. Keçmişdən bir ailədən o biri ailəyə inteqrasiya məsələsi var. Böyüklər indi daha yaxşı bilir kim necədir. Ailənin dağılmasına barmaqarası baxırlar. Faciə kimi baxmırlar. Keçmişdə böyüklər üçün bir faciə idi. Dəyərlər itir". / Elxan Abbasov, hüquqşünas/*

*"Ölkəmizdə boşanmaların əsas səbəbi məsuliyyətsizlik, rahatlığa düşkün olmaq, sərbəstlikdir. İstər qadın, istərsə də kişi öhdəçilik götürmək istəmir". /Tahirə Əlirzayeva, jurnalist/*

*"İndi ictimaiyyət çox laqeyd olub. Qonşu-qonşunu tanımır. Mənim vaxtımda biz hamının ailəsini tanıyırdıq, qonaq gedirdik, çay içirdik, söhbət edirdik. İndi az qala heç kim heç kimə qonaq getmir. O vaxtı kişi qadına əl qaldırırdısa, camaat yığışırdı, ictimai qınaq edirdi ki, niyə belə edirsən. İndi bu, yoxdur. Qonşu da, qohum-əqrəba da laqeyddir. Hamı bir parça çörəyin dərdinə qalıb. O vaxtı da çörək qazanmaq çətin idi, ancaq insanlarda münasibət başqa idi. İndi o münasibətlər yoxdur, qırılıbdır". /Novella Cəfəroğlu, İB sədri/*

*"Kənar təsirlər deyərdim. Barışdırmaq əvəzinə sanki özününkünü müdafiə edir". /Leyla Süleymanova, hüquqşünas/*

*"Bu gün Avropadan gəlmiş yad mənəvi-əxlaqi dəyər formalaşıb. Yəni mən ailə qururamsa, tək yaşamaq istəyirəm modeli. Bax, bu müstəqillik deyil. Müstəqil, azad yaşamaq deyil. Müstəqil yaşaya bilər. Əgər mənim buna intellektim, dünyagörüşüm, təhsilim uyğundursa, müstəqil yaşaya bilərəm. Amma bizim ailə dəyərlərimizi yıxıb, nuklear ailə yaratmaq istədilər. Bunu ona görə edirlər ki, fərdiyyətçilik çoxalsın. Baxın, bu, maksimalizmə gətirib çıxarır". /Rafiq Allahverdiyev, psixoloq/*

## Uşaqların sayının azalması ailə dəyişikliklərindən biri kimi

Respondentlər müasir dövrdə Azərbaycan ailələrindəki əsas dəyişikliklərdən biri kimi dünyaya gələn uşaqların sayının azalmasını göstəriblər. Respondentlərin 17-si bu məsələyə xüsusi yer verib. Demək olar ki, bütün iştirakçılar müasir dövrdə Azərbaycan ailələrindəki uşaq sayının, adətən, 1-2 nəfər olduğunu bildirib.

Səbəblərinə gəlincə isə, respondentlər (12 nəfər) bunu əsasən maddi durumla əlaqələndiriblər. Burada bəzi ailələrin maddi durumunun aşağı olması səbəb kimi göstərilsə də, bəzi ailələrin büdcə planlamasına verdiyi yüksək diqqətə də toxunulub. Belə ki, 10 respondent müasir dövrdə ailə planlamasında daha çox ailənin (xüsusilə də, şəhər tipli məntəqələrdə) kəmiyyətə yox, keyfiyyətə üstünlük verdiyini deyərək, valideynlərin təhsilli və hərtərəfli övlad yetişdirmək marağının uşaqların sayının azalmasının səbəblərindən biri kimi görür.

*"İndi insanlar yetişdirdikləri uşağı hər şey ilə təmin etmək istəyir. İstəyirlər ki, ailələri mükəmməl olsun, bir-iki uşaq böyütsünlər, lakin o uşağa təhsil verə bilsinlər. Yaxşı və keyfiyyətli həyat tərzilə təmin etsinlər. Kor-koranə uşaq böyütməyi düşünmürlər. Düşünürlər ki, uşağa layiqli həyat versinlər". /Leyla Süleymanova, hüquqşünas/*

*"Valideyn olmaq istəyənlər artıq “mənim imkanlarımla övlad dünyaya gətirmək uzlaşırmı?” deyə düşünürlər. Təkcə kəmiyyətə deyil, artıq həm də keyfiyyətə fikir vermək zamanıdır. Kamil daha az vətəndaş, cahil daha çox vətəndaşdan yaxşıdır". /Jalə Mütəllimova, jurnalist/*

Bir sıra respondentlər isə uşaqların sayının azalmasının başlıca səbəblərini qeyri-maddi amillərdə görürlər. Məsələn, 2 respondent müasir ailələrin məsuliyyətdən qaçmaq meylini, 1 respondent Qərb mədəniyyətinin təsirini, 1 respondent təhsilli qadınların sayının artmasını və 1 respondent isə geniş ailələrin sayının azalmasını əsas səbəb kimi dilə gətirib.

5 respondent ailələrin ölçüsünün kiçilməsi ilə bağlı danışarkən, qadınların dəyişən statusuna da xüsusi yer verib. Rayonların birində problemli ailələrlə çalışan respondentlərdən biri (37 illik iş təcrübəsinə malikdir) əvvəlki dövrlərdə ailədə qərarvermədə üstünlüyün kişilərdə olduğunu, lakin son dövrlər qadınların bu mənada əsas söz sahibi olduğunu müşahidə etdiyini bildirib.

## Sosial şəbəkələrin ailə dəyərlərinə mənfi təsiri

Sosial şəbəkələrin müasir dövrdə yaşayan ailələrin həyatlarının bir parçasına çevrildiyi demək olar ki, bütün respondentlər tərəfindən səsləndirilib. Lakin sosial şəbəkələrlə bağlı daha geniş yayılmış fikir onların mənfi təsiri ilə bağlıdır (15 respondent).

Əvvəla, 3 respondent sosial şəbəkələr üzərindən qurulan tanışlıqların (evlilikdən öncə və evlilik müddətində) ailə strukturuna iki formada ciddi zərbə vurduğunu müşahidə etdiyini qeyd edib. Çoxsaylı boşanmış ailələrlə işləyən hüquqşünas bu problemin olduqca ciddi olduğunu, 7 illik baş məsləhətçi olaraq çalışan respondent isə sosial şəbəkələrdə tanışlığın get-gedə sürətlə şəxsi münasibətlərə çevrilməsinin sonradan ailələrin dağılmasına, hətta cinayət faktlarına gətirib çıxarmasından narahat olduğunu bildirib.

4 respondent sosial şəbəkələrin ailə daxilində ünsiyyət problemi yaratdığını nəzərə çatdırıb. Aşağıda bəzi sitatlar təqdim edilib:

*"Mən heç bir müsbət tərəf görmürəm. Ailədə fərdlər bir-birindən uzaqlaşır. Atanın, ananın, övladın əlində telefon, hərə öz otağında, öz dünyasında. Elə bil ki, sosial şəbəkələrlə yaşayırlar. Ünsiyyət yoxluğu yaranır". /Mahirə Əmirhüseynova, İB sədri/*

*"Sosial şəbəkələr ünsiyyəti tamamilə kəsir. Uşaqlar böyüdükcə sosial şəbəkələrdə böyüklərin uşaqlara qarşı etinasız yanaşmalarını görürlər. Ehtiyaclarını qarşılamır. Burada ehtiyaclar dedikdə təkcə maddiyyat nəzərdə tutulmur, həm də sosial və mənəvi cəhətdən onların ehtiyacları qarşılanmır. Sosial şəbəkələr valideynlərin vaxtını aldığı üçün ünsiyyət problemi yaranır. Get-gedə tədricən ünsiyyət kəsilməyə başlayır". /Tərlan Tağıyeva, sosial işçi/*

*"Ancaq fərdiləşməni sürətləndirir. Yəni ailə fərdləri arasında ünsiyyət sürətlə azalır, bəzən fərdlərin bir-birindən demək olar ki, xəbəri olmur". /Tahirə Əlirzayeva, jurnalist/*

Respondentlərin yalnız 5-i sosial şəbəkələrin müsbət təsirlərinin də olduğunu, bunun ailələrin maariflənməsi və internetin təhsil almaq imkanlarını genişləndirdiyini xüsusi vurğulayıblar.

## Feminizmin ailə dəyərlərinə mənfi təsiri

Feminizmin ailə dəyərlərinə mənfi təsirini 7 respondent müasir ailələrdəki dəyişikliklərdən biri kimi xarakterizə edir. Əsas mənfi təsirin gənc ailələrə olduğu qənaəti mövcuddur. Respondentlərin bir hissəsi isə feminizmin ailə dəyərlərinə təsir imkanlarının demək olar ki, mövcud olmadığını düşünür. Bu düşüncəni əsaslandırarkən isə feminizmin ölkəmizdə güclü təbliğ edilməməsi amili göstərilib.

*"Bəli, təhlükə sayıram, normal yaşayışı, ailəsi olan qadınların fikirlərinin dəyişdirilməsi, guya azadlığa səslənilməsi təhlükəlidir. Eşidib görmüşük, çox ailələr bu feministlərin təsirinə düşüb dağılıblar. /Emin Mehdiyev, Milli Dəyərlərin Təbliği Fondu/*

*"Onların ailə dəyərlərinə təhlükəsi var. Hər bir gəncin keçid dövrü olur, onlar açıq şəkildə təsirə düşə bilirlər. Sosial şəbəkələr vasitəsilə gənclər bu dairəyə daxil olurlar. Onlarla maraqlanırlar, tanış olurlar". /Gülşən Salmanova, vəkil/*

## Ailə münaqişələrinin səbəbləri

Ailə münaqişələrinin səbəblərinə dair respondentlərin fikirlərini iki qrupa bölmək olar – maddi səbəblər və qeyri-maddi səbəblər. 5 respondent maddi problemləri münaqişənin əsas səbəblərindən biri kimi görsə də, digər 10 respondent qeyri-maddi səbəblərin dominant faktor olduğunu düşünür. Qeyri-maddi səbəblərə qadının dəyişən statusu (2 respondent), cinsi tələbatın ödənilməməsi (1 respondent), təhsil və dünyagörüşü fərqləri (3 respondent) və kənar şəxslərin ailədaxili məsələlərə müdaxiləsi (4 respondent) daxildir. Bəzi maraqlı fikirlər aşağıda təqdim edilib:

*"Son vaxtlar qadınların iqtisadi asılılığı azalır deyə, ailə institutunda da müəyyən dəyişikliklər yaranır. Bu həm də qadını söz eşidən tərəfdən çıxarıb söz deyən tərəfə çevirir. Bu halın müsbət tərəfləri çox olsa da, bəzi arzuolunmaz nəticələrə də gətirib çıxarır. Cəmiyyətimiz üçün bu hal yeni sayıldığından bəzən tərəflər bir-birinin fikirləri ilə razılaşmır, ailədaxili münaqişələr yaranır və nəticə boşanmaya qədər aparıb çıxarır. Ancaq illər keçdikcə normallaşma daha da sürətlənir". /Tahirə Əlirzayeva, jurnalist/*

*"Ailə kiçik bir dövlətdir. Hər ailənin özünün qanunları var. Əmi, xala, bibi, dayı bura müdaxilə etməməlidir. Onlar müdaxilə etmədikləri halda bizim çox gözəl yetişmiş ailələrimiz olar. Keçmişdə gəlin-baldız arasında olan münasibətlərdə sabah o evdə yetişən yeni gəlin varsa, öz bacısı haqqında "qayınanandan ehtiyatlı ol" eşidə bilər. Bu zaman ailələrdə söz-söhbətlər yaranır". /Aytən Ələkbərova, psixoloq/*

## Ailə institutunun gücləndirilməsi

10 respondent müasir dövrdə Azərbaycan ailə institutunun zəifləməkdə olduğunu və bunun qarşısının alınması üçün bir sıra tədbirlərin görülməli olduğunu düşünür. 3 respondent psixoloqların lazım gəldikdə ailələrə müdaxilə etməli olduğunu və bunun üçün də ailə psixoloqlarının təsis edilməsini təklif edib. 15 illik sosial iş təcrübəsi olan respondent psixoloqların işləyəcəyi ailə məsləhətxanalarının yaradılmasını təklif edir. 2 respondent aidiyyəti orqanlar tərəfindən (xüsusilə də məktəblərdə) maarifləndirmənin aparılmalı olduğunu vurğulayıb. Bu mənada ailə dəyərlərinin tədrisi təklifi xüsusilə diqqət çəkir. Bir respondent isə yeni təsis edilmiş mediasiya institutunun ailə institutunun gücləndirilməsinə xidmət edəcəyini bildirib.

*"Təbiidir ki, dövlət orqanları bunun qarşısını almaq üçün peşəkar psixoloqların istifadəsinə verməlidir. Deməyin ki, öz peşəsinə görə bunu deyir. Özüm də statistik hesablamalar aparıram, 42 ailənin 37-sini özüm tək bərpa etməyi bacarmışamsa, ailə institutunda olsam özüm kimi bir neçə psixoloq yetişdirsəm, hər 42 ailədən 37-si hadisəsi baş verərsə, görün boşanmaların sayı necə azalar". / Aytən Ələkbərova, psixoloq/*

*"Ədliyyə Nazirliyi tərəfindən bunu deyə bilərəm ki, pilot layihə çərçivəsində, bütün qeydiyyat şöbələrinə ödənişsiz psixoloqlar cəlb olunub. Bildiyiniz kimi, şöbələrə müraciət edənlərin uşaqları olur. Biz də həmin cütlükləri psixoloqlarla görüşdürürük. Psixoloqlarla görüşdükdən sonra əl-ələ verib otaqdan birgə çıxan cütlüklər də çox olub. Fikirlərini dəyişənlər var. Bu da bizi çox sevindirir". /Aytən Muradova, 2 saylı Bakı ASAN xidmətdə Ədliyyə Nazirliyinin qeydiyyat şöbəsi/*

## Mediasiya xidmətindən müsbət gözləntilər

Müsahiblərin 13-ü mediasiya xidməti barədə ətraflı danışıb, onun yaradılmasından müsbət gözləntiləri olduğunu dilə gətiriblər. Digər respondentlərin əksəriyyəti mediasiya xidməti barədə dolğun informasiyaya malik olmadığını, az sayda müsahib isə hər hansı gözləntisinin olmadığını bildirib. Geniş yayılmış iki gözlənti bundan ibarətdir ki, məhkəmələrdə iş yükü və boşanmaların sayı azalacaq.

*"Mediasiya institutunda mediatorlar fəaliyyət göstərir. Hal-hazırda mən özüm də mediator kimi təlimlərdə iştirak edirəm. Sertifikat almışam. Səbirsizliklə gözləyirəm ki, bu mexanizm işə düşsün. Hesab edirəm ki, bir sıra istiqamətlərdə dövlətə köməkliyi dəyəcək. Ən birincisi, məhkəmələrdə iş yükü azalacaq. Yəni müraciət zamanı mediatorlar məhkəməyə müraciətin qarşısını alacaqlar. Ailələrin dağılmasının qarşısı alınacaq". /Gülşən Salmanova, vəkil/*

*"Məhkəmələrdə iş yükü azalacaq. Ailə mübahisələrinin mediasiyada həll olunması daha məqsədəuyğundur. Çünki məhkəmədən fərqli olaraq, mediasiyada tərəflər özləri bütün mübahisələrə dair qərar qəbul edirlər. Vaxta və xərcə qənaətdir". /Rəna Məmmədova, vəkil/*

*"Bilirsiniz necədir? Birdən-birə aparıb verirlər məhkəməyə, haradasa indi iş də, iş yükü də çoxdur. Onu araşdırmağa ola bilər ki, vaxt olmur. Öz praktikamızdan deyim. Məsələn, il ərzində ən azından 5 nəfəri biz barışdırırıq. Amma o qurumun işi barışdırmaq olsa, mənə elə gəlir ki, daha çox barışma baş verər. Ona görə fikirləşirəm ki, çox lazımdır və yaxşı da olacaq". /Rusif Quliyev, hüquqşünas/*

*"Boşanmaların öncədən qarşısının alınması böyük fəlakətlərin qarşısını alır. Natamam ailələrin qarşısını alır. Mediasiya olan ölkədə həssas qrupa aid edilən uşaqların sayı azalır. Bu isə cinayətkarların, zərərli vərdişləri olan insanların azalması deməkdir". /Tərlan Tağıyeva, sosial işçi/*

## Şəhər və kənd yerlərində ailə xüsusiyyətlərində fərq

Müsahiblərin 11-i şəhər və kənd yerlərindəki ailələrin bir-birindən fundamental cəhətdən fərqləndiklərini düşünür. Bəzi respondentlər (3 respondent) fərqləri maddi imkanların şəhərlərdə kənd yerlərinə nisbətən daha geniş olduğunu desə də, daha geniş yayılmış fikir fərqlərin ailə dəyərləri və dünyagörüşü ilə bağlı olduğuna dair olub. Müsahiblərin 3-ü əsas fərqi şəhərlərdə yaşayan ailələrin özlərini daha sərbəst hiss etməsində görür.

*"Şəhərlə müqayisədə rayonlarda ailə dəyərləri, ailə bağlılığı daha çox qalıb". /Mahirə Əmirhüseynova, İB sədri/*

*"Şəhərlərdə müasirlik daha çox müşahidə edilir. Kənd və rayonlarda bir az gerilik var. Hələ də qadının işləməməsi, yalnız uşaqlara baxmasına üstünlük verilir". /Aytən Muradova, ASAN xidmətdə Ədliyyə Nazirliyinin qeydiyyat şöbəsi/*

*"Ailədə ənənəvilik bölgələrdə daha çox qorunub saxlanılıb. Şəhər yerlərində bu hallara rast gəlinmir". /Tərlan Tağıyeva, sosial işçi/*

*Dəyər sistemlərinin qavranılması və reallaşdırılması mühiti var. Fərq bundadır. Kənddə qadına və ailəyə verilən imkanlarla şəhər ailəsinin imkanları, istirahət formatı, insanlarla ünsiyyəti ciddi şəkildə fərqlənir. /Jalə Mütəllimova, jurnalist/*

## Ailə quran gənclərin müasirləşməsi

12 respondent ailə quran gənclərin müasirləşməsi məsələsinə ətraflı fikir bildirib. Səsləndirilən fikirlər arasında ən geniş yayılan məqam bundan ibarətdir ki, müasirləşmə gənc cütlüklərdə tərəflərin bir-birinə hörmət göstərməsi və dinləməsi ilə əlaqəlidir. Belə ki, əgər ənənəvi ailələrdə əksər hallarda kişi qərarvermədə iştirak edən tək tərəf idisə, müasir ailələrdə həm kişi, həm də qadın qərarvermədə iştirak edir. Bununla yanaşı, tərəflərin qarşılıqlı hörməti gözləməsi və mübahisələri qarşılıqlı dialoqla həll etməsi də müasir ailələrin xüsusiyyəti kimi göstərilib.

*"Müasir ailə demokratik ailədir. Yəni ailədə hər hansı problem yarandıqda ailə üzvləri arasında məsuliyyətlərin düzgün bölgüsü, bir-birinə qulaq asma, problemlərdən çıxış yolunun birgə axtarılması, qarşılıqlı hörmət, özünüifadəyə şərait yaradılması, ailənin kiçik yaşlı üzvlərinə hörmət və onların fikirlərinin dinlənilməsi, həmçinin məqsədəuyğun hesab edildiyi təqdirdə bu fikirlərin nəzərə alınması kimi praktikalar izlənilir və tətbiq edilir". /Elvin Muradov, sosial iş/*

*"Əslində yeni qərarların alınması müasir dövrdə yeni ailələr tərəfindən olur. Gender bərabərliyinin qorunması müasirləşməyə səbəbdir. Məişət işlərinin ər və arvadın birlikdə görməsi də müasirləşmədir. Müasir gənclik bunu qəbul edir. Uşaqların az olması, assimilyasiyaya uğramaq, inteqrasiya etmək, Avropa mədəniyyətinə meyillilik bunlar da müasirlik sayılır". /Tərlan Tağıyeva, sosial işçi/*

*"Müasirləşmə çoxşaxəli bir anlayışdır. Məsələn, onların təhsil alması, dünyagörüşlərinin artması. İnsanın bilik və bacarığı yoxdursa, o, ailə sahibi ola bilməz. Əsasən bunları nəzərə almaq lazımdır. Texnologiyalardan bilikləri əldə etmək lazımdır. Çünki biz müasir dövrdə yaşayırıq. Gənc ata və gənc anaların cəmiyyətin inkişafından məlumatlı olması vacibdir, ən azı öz uşağının təhsili ilə bağlı". /Kəmalə Aşumova, QHT/*

# TƏDQİQATIN YEKUNU. NƏTİCƏLƏR

**"Azərbaycanda mövcud ailə münasibətləri: sosial-psixoloji təhlil" mövzusunda keçirilən rəy sorğusunun kəmiyyət əsaslı tədqiqinin nəticələri-icmalı müvafiq bölmədə yerləşdirilib. Tədqiqatın yekun hissəsində keyfiyyət aspektlərinin, eləcə də mövzu ilə bağlı yerli və xarici tədqiqatların qənaətlərinin ümumiləşdirilməsi, probleme həm respondent, həm də 27 nəfərdən ibarət ekspert qrupunun rəyinin müqayisəli təhlili də nəzərə alınmaqla aşağıdakı nəticələr əldə edilib:**

❍ Azərbaycanın ənənəvi ailə modeli böhran və dərin transformasiya proseslərindən keçir. Hazırda Azərbaycanda mövcud olan 2 milyon 62 mindən artıq ailə - sosial bir institut olduğu üçün, ailənin missiyası, sosial funksiyaları, ailə dəyərləri, vəzifə və öhdəlikləri və s. istiqamətlərdə yaranan problemlər əhatəsi göstərilən ailə sayından dəfələrlə çoxsaylı əhalini əhatə edir;

❍ Ailənin son onilliklərdə dinamikası birmənalı qiymətləndirilmir və onun həm müsbət, həm də mənfi məzmunlu vektorlara meyillənməsini ifadə edən mövqelər mövcuddur. Bu vəziyyət fikir müxtəlifliyi baxımından məqbul hesab edilsə də, ailənin real vəziyyətinin dəyərləndirilməsində gerçək mənfi tendensiyaların aydın vurğulanması, müvafiq qərarların qəbul edilməsi üçün son dərəcə mühüm məsələdir;

❍ Rəyi soruşulanların 93.2%-nin "Ailə kiçik dövlətdir" fikri ilə razı olması ailəyə cəmiyyətdə verilən yüksək dəyəri göstərir;

❍ Azərbaycan ailəsi son otuz ildə nəinki bir ictimai-siyasi quruluşdan digərinə keçid problemini yaşayıb, reallıqda fövqəlmürəkkəb, "çoxqatlı" transformasiyaların təsirinə məruz qalıb.

❍ Qlobal informasiya inqilabı və onun dövlətlərin daxili işlərinə müdaxilə üçün sui-istifadə edilməsi klassik ailə modelinin əsaslandığı ənənəvi ailə dəyərlərinin dəyişməsinə, tənəzzülünə və sıradan çıxmasına səbəb olur;

❍ Azərbaycan ailəsi ənənəvi patriarxal ailə modelindən müasir-postmodern ailə modelinə doğru transformasiya prosesindədir. Bu baxımdan hazırkı ailə tipi müəyyən dərəcədə "keçid-transformasion" ailə tipinin xüsusiyyətlərini daşıyır. Ailənin keçid prosesindən hansı xüsusiyyətlərlə çıxması - hazırkı vəziyyətin dərindən təhlilinə əsaslanan dövlət ailə siyasətindən birmənalı asılı olacaq;

❍ Ailə mərkəzli fərdiyyətçilik dəyərlərinə keçid, ailənin sosial institut kimi dəyişməsi ənənəvi olaraq malik olduğu sosial funksiyalarını yerinə yetirə bilməməsində ifadə olunur. Ailənin əsas sosial funksiyaları - nəsilartırma, uşaqların tərbiyəsi, onların bir vətəndaş kimi yetişdirilməsi və s. yerinə yetirilmədikdə onun sosial institut kimi iflası gözləniləndir. Ailə sosial institut kimi yox ola, son nəticədə cəmiyyətin sosial sistem olaraq çökməsinə səbəb ola bilər;

❍ Azərbaycanda doğulan uşaqların cins nisbətinin pozulması, yəni qız uşaqlarının selektiv abort edilməsi nəticəsində doğuş üzrə təbii cins balansının pozulması yönündə utancverici qeyri-sivil tendensiyada ölkəmiz "dünya 1-cisi" olmağa doğru gedir;

❍ Azərbaycanda oğlan uşaqlarının sayının çoxalması, əhalinin maskulinaziyası tendensiyasının dəyişməyəcəyi təqdirdə "demoqrafik maskulinizasiya" kimi hadisə baş verə, həmin həddən sonra gender balansı düzəlsə belə, nəticələrin aradan qaldırılması olduqca mürəkkəb ola bilər. Nəticədə, kişilər üçün yeni "nikah bazarının" formalaşması, "xarici gəlinlərin" sayının artması və genofond dəyişməsi baş verə bilər. BMTƏF (UNFPA) və AQUPDK-nin birgə tədqiqatına görə, hətta ən optimist ssenariyə görə 2050-ci ilə qədər mövcud vəziyyəti - cinslərarası balansı dəyişmək mümkün olmayacaq.

❍ Erkən nikahların (əsasən də dini nikah) statistikasında hissediləcək azalma müşahidə edilmir;

❍ Sorğuda boşanmaların səbəbi kimi respondentlərin əksər hissəsinin maddi səbəblərlə "xəyanət" amilini eyni dərəcədə-bərabər hesab etməsi ailələrə sosial-psixoloji xidmət (ailələr üçün sosial işçilər) qurumlarının, xüsusilə də psixoloji xidmət infrastrukturunun formalaşmasını gündəmə gətirir.

“Azərbaycanda psixi sağlamlıq sistemi haqqında" Ümumdünya Səhiyyə Təşkilatının və AR Səhiyyə Nazirliyinin hesabatında qeyd edilir: “Ölkədə psixi sağlamlıq siyasəti mövcud deyil. Kadr resursları baxımından psixi sağlamlıq sistemində psixoloqlar, sosial işçilər və peşə həkimləri çatışmır.”

❍ Ailə dəyərlərini tənəzzülə uğradan başlıca amillərin sadalanması Qərb dəyərlərinin güclü təbliğinin sosial şəbəkə və internet kanallarında əsas hədəflərdən biri olmasına dəlalət edir. Maraqlı və həm də paradoksal hesab edilən məsələlərdən biri də respondentlərin müəyyən qisminin “yerli serialları” da (19.1%) ailəyə ziyanlı amillər sırasına daxil etməsidir. Həmçinin, Azərbaycanda özünü feminist kimi təqdim edənlərin fəallığı da cəmiyyətdə gərginliyi hiss etdirəcək dərəcədədir.

❍ Respondentlərin cavablarında “Qeyri-rəsmi nikahların rəsmi nikahlara münasibətdə çoxalması” amili kifayət qədər yüksək rəqəm (39.2%) ifadə edir. Cəmiyyətdə artıq vətəndaş nikahı ilə yaşayanlar və bu nikahdan övlad dünyaya gətirənlərin sayının rəsmi nikaha girənlərin sayına demək olar ki, çatması, bununla bağlı Ailə Məcəlləsinə və digər qanunvericilik sənədlərinə tənzimləyici müddəaların salınması ilə bağlı müzakirələr gedir.

❍ “De-yure” deyil, “de-fakto” nikahlar yalnız mövzu kimi deyil, bir tendensiya kimi genişlənməkdədir. Ekspertlərin fikrinə görə, həm nikaha daxil olanların, həm də boşananların sayı Dövlət Statistika Komitəsinin məlumatında olduğundan xeyli çoxdur. Xüsusən, boşanmaların sayı dəfələrlə artıqdır. Ölkədə ümumiyyətlə nikahsız, yaxud təkcə dini nikahla yaşayanlar kifayət qədərdir. Digər tərəfdən, adətən, ailə zəminində münaqişə və s. səbəblərdən də rəsmi nikahlar pozulmadan birgə yaşamayan cütlüklər də var. Bu və digər təzahürlərin əksəriyyətinin ailə modelimizin xarakterinə yad olmasına rəğmən yayılması transformasiyalardan xəbər verir.

❍ Ailə modelinin dəyişikliklərə uğraması, hazırkı böhran vəziyyətinə çatması proseslərə dövlət və cəmiyyətin təcili diqqəti və müdaxiləsini, məqsədyönlü inkişafını təmin edən siyasətin həyata keçirilməsini tələb edir. Əks təqdirdə, proseslər bütün sistemlərdə keçid proseslərinə xas olan “transformasiya-böhran-xaos” vektoruna doğru meyillənə bilər.

❍ Sorğu gedişində kəmiyyət və keyfiyyət təhlilinin nəticələri göstərir ki, Azərbaycanda ailənin cəmiyyət və dövlətin gələcəyini təmin edən, çağırışlara cavab verən bir struktur kimi statusunu zəiflədən ziddiyyətli proseslər baş verməkdədir. Təkanalı/təkatalı natamam ailə modelinin formalaşma templəri, tendensiyaya çevrilməsi təkcə ailə və ailə münasibətlərinin deyil, bütövlükdə tərbiyə prosesində gender balansının pozulması nəticəsində bütün sosial münasibətlərin strukturunun dərin və geridönməz transformasiyaya uğramasına zəmin yaradır;

❍ Dövlət siyasətinin gender-ailə, qadın və uşaq istiqamətlərinin reallaşdırılmasında aşkar disbalans vəziyyəti formalaşmışdır.

❍ Ailəni və cəmiyyəti irəli aparan xüsusiyyətlərin inkişaf etdirilməsi, tarixi sınaqdan çıxan ailə münasibətlərinin, Azərbaycan ailəsinə xas olan dəyərlərin qorunması yolu ilə inkişafa əngəl olan cəhətlərin məhdudlaşdırılması dövlət ailə siyasətinin mərkəzində duran strateji məsələ statusuna yüksəlməyib;

❍ Azərbaycanda dövlət ailə siyasəti modernləşdirilmə istiqamətində, məzmun baxımından birtərəfli - qadın azadlıqları, gender və hüquq bərabərliyi müstəvisinə keçib, ailə həyat tərzimiz və dəyərlərimiz dövlət siyasətinin mərkəzi hədəfi və əsas sütunu kimi dəyərləndirilməyib;

❍ Qeyd edilənlər ailə məsələləri sahəsində dövlət siyasətini həyata keçirən rəsmi dövlət qurumunun adında əksini tapan, problemlərə kompleks-sistemli deyil, fraqmentar yanaşmanı ifadə edən “ailə, qadın və uşaq” istiqamətlərinin gerçəklikdə də əks olunmasını şərtləndirib. Komitənin təsis edilməsi zamanı bir çox dillərdə “ailə məsələləri” kimi məna verən ifadə “problemləri” kimi anlaşılıb.

❍ Ailə münasibətlərinin “de-yure" və "de-fakto” səviyyələri ənənəvi və postmodern tendensiyaların mürəkkəb təzyiqinə məruz qalıb;

❍ Azərbaycan cəmiyyətində ailə rolları və münasibətlər strukturundakı ta-

rixi-sivilizasion qaynaqlarımızda güclü olan “Ata kultu”, atalıq fenomeni institusional etibarlılığı və inkişafı baxımından zəiflənən istiqamətə meyillənib, təkanalı ailələr və təhsil sahəsinin feminizasiyası bu proseslərə təkan verir;

- Cəmiyyətimizdə postmodern-neoliberal ailə münasibətlərinin tipik xüsusiyyətlərini səciyyələndirən əsas cəhətlər tarixən mövcud olan ictimai qınaqdan, stereotiplərdən, valideynlərin gözləntilərindən, dini-mənəvi dəyərlərdən asılı olmayan, gənclərin nihilist ailə münasibətləri təsəvvürlərinin-tipinin formalaşma tendensiyası müşahidə olunur;
- Hazırda Azərbaycanda ailə modelinin tipoloji plüralizminin mövcudluğundan danışa bilərik. Bu da ölkəmizdə sosial sistemin transformasiyası, ailənin institusional strukturunda fərdi-müstəqil seçimlərə qoyulan məhdudiyyətlərin tədricən informasiya cəmiyyətinin formalaşması ilə daha sürətlə azalması meylinin nəticəsidir.
- Baş verən transformasiya prosesləri nəticəsində Azərbaycanda ailənin demoqrafik davranışı dəyişib, çağırışlara spontan, kortəbii uyğunlaşma səyləri ailənin öz seçimi ümidinə qalıb, çoxsaylı ailə tipləri - karyeranı daha vacib hesab edənlər (karyeristlər); tərbiyəçi ailə tipi; postmodern, postənənəvi ailə tipinin formalaşması cəhdləri sınaqdan keçir.
- Ailə münasibətlərində sosial münasibətlərlə rəqabət aparan individualist/fərdi-subyektiv seçimlər dominant ailə modelinin məlum ailə davranış tiplərini (valideynlik, reproduktivlik, ər-arvad, sosiallaşma, demoqrafik və s.) tədricən əvəzləməyə çalışır;
- Ölkəmizdə yeni-alternativ ailə formalarının təbliği Qərbdə mövcud olan bəlli mərkəzlərdən intensiv surətdə təşviq edilir. Bu işlərə milyonlarla dollar maliyyə ayrılır. Ailə modelimizi alternativ modellərlə əvəzləmək yönündə keçid dövrü yaşayan ailə institutumuzu hədəfə alan, mənfi modelə “transformasiya agentləri” rolunda - radikal feministlər, cinsi azlıqlar (LGBTİ) xüsusi fəallıq göstərir.
- Bir tərəfdən sözügedən boşluqlardan, digər tərəfdən isə qlobal informasiya və sosial şəbəkə texnologiyalarından sui-istifadə edilərək, dövlətimizi onu güclü edən təməl dayaqlarından məhrum etmək, ailə dəyərlərimizi hədəfə almaq məqsədilə “yumşaq güc” siyasəti tam qüvvəsi ilə işə salınıb. Azərbaycan ailəsinin, ailə dəyərlərinin mənəvi-ideoloji əsaslarının zəiflədilməsi üçün məqsədyönlü şəkildə bəlli xarici qüvvələr tərəfindən məhz ideoloji informasiya müharibəsi aparılır. Külli miqdarda maliyyənin ayrıldığı qlobal layihə reallaşdırılır.
- Hazırda qlobal layihə əsasında Qərbin maliyyəsi və himayədarlığı altında ölkədə başlıca hədəf olaraq Azərbaycan ailəsi və onun ənənəvi, mənəvi-ideoloji əsası olan dəyərlərin sarsıldılmasına yönəlik yabançı və ziyanlı ideologiyaların aqressiv təbliği həyata keçirilməkdədir. Son 5 ildə feminizm, anarxizm, nihilizm, pasifizm, kosmopolitizm, ateizm və urbanizmin ən ifrat qollarının, cinsi azlıqlar ideologiyalarının şiddətlə təbliğinə və bütün bunların lobbiçiliyini edən daxili icraçıların əl-qol açmasına münbit şərait yaradılıb.
- Boşanma səbəbləri sırasında ilk sırada duran sosial-psixoloji və sosial-iqtisadi amillər, həyat yoldaşı və bütövlükdə ailənin imici ilə bağlı təhrif edilmiş təsəvvürlər nəticəsində qeyri-adekvat “ailə mifləri” formalaşır, bu da ailə münasibətlərinin təbiətinə və ailənin həyatına olduqca mənfi təsir göstərir. Valideynlər övladlarının ailə qurmasına olduqca ciddi, hətta qorxu ilə yanaşır, uzun müddət seçimlər etməyə məcbur qalırlar. Ənənəvi ailə dəyərlərinə vaxtı ötüb keçmiş, keçmişin qalığı kimi baxılması meyli yayılmaqdadır. Ailə həyatı ilə bağlı dəyişən təsəvvürlərin fonunda alternativ şəxslərarası münasibət formaları ortaya çıxmağa başlayıb. Müasir ailədə evlilik, valideynlik və digər sosial əhəmiyyətli rollar təsəvvürəgəlməz sürətlə böyük dəyişikliklərə məruz qalır;
- Bir çox gənclərdə formalaşan ailə həyatı, ər-arvad münasibətləri barədə ziddiyyətli təsəvvürlər səbəbindən evlilik yaşı uzanır, onlar evlənməkdən qorxur, yaxud onu qeyri-müəyyən vaxta qədər təxirə salırlar;
- Ailələrə ayrılan sosial dəstək siyasətinin təkmilləşməyə ehtiyacı var.
- Çoxuşaqlı ailələrə dövlət dəstəyi bu və ya digər normativ hüquqi aktlarda nəzərdə tutulsa da, ailə institutu üzrə aparılan araşdırmalar, təhlillər və

eyni zamanda beynəlxalq praktikada bu dəstəyin məlum kateqoriyadan olan ailələrin hərtərəfli dəstəklənməsi üçün yetərli olmadığını göstərir. Çoxuşaqlı ailələrin azalması, hazırda demoqrafik problem həddində olmasa da, yaxın gələcək üçün təhdid yaradacaq hal hesab edilməsi, ekspertlərin və aidiyyəti qurumların ailələrdə doğulan uşaqların sayının artırılması üçün dəfələrlə hökuməti stimullaşdırıcı tədbirlər görməyə səsləməsi, boşanmaların artması, evlilik yaşının yüksəlməsi, ailə xərclərinin artması və s. meyillər dövlət ailə siyasətinə tamamilə yenidən baxmaq, strateji addımlar atmaq üçün ciddi əsaslar yaradıb.

- Sorğu gedişində TV-lərdə nümayiş edilən yerli veriliş və proqramlar ailə dəyərlərinə ziyanlı təsir edən amillər kimi qiymətləndirilib. Ölkədə ailə dəyərlərini təbliğ edən televiziya verilişlərinin olmadığı bir şəraitdə bəzi proqramlar 24/7 rejimində Azərbaycan ailə modelinə tarixən xas olmayan-ailələrdə xəyanət, övladlardan imtina, məişət zorakılığı, ailə münaqişələri, erkən nikahlar, yoxsul ailələr və s. antisosial dəyərləri təbliğ edən süjetləri tirajlayır.

## TÖVSİYƏLƏR

### Dövlət ailə siyasəti sahəsində:

❖ Azərbaycanda dövlət ailə siyasətinin mövcud mənfi təmayüllü tendensiyalar, qlobal çağırışlar və ailə institutumuza təhdidlər nəzərə alınmaqla, ailə modelinin transformasiyasının arzu olunan məcraya yönəldilməsi üçün tamamilə yenilənməsi məqsədəuyğundur.

❖ Hazırda mövcud olan dövlət ailə siyasətinin modeli "liberal, sosial-demokratik və bazar iqtisadiyyatı oriyentasiyalı" dünya modelləri ilə müqayisə edilərsə, onların heç birinə aid edilə bilmir. Qlobal reytinqlərdə ölkəmiz "Ailə mərkəzli/ailəyə dost (family-friendly)" övlət siyasəti olmayan dövlətlər sırasına aid edilir. Ümumiləşdirməyə cəhd edilərsə, Azərbaycanda dövlət ailə siyasəti İngiltərənin bazar iqtisadiyyatı oriyentasiyalı modelinə, həmçinin "Aralıq dənizi modeli"nə bənzədilə bilər. Bu modellərdə ancaq ən imkansız ailələrə sosial dəstəklər nəzərdə tutulur və başqaları bazar qanunlarına uyğun öz "başlarına çarə qılır". Hazırda uğurlu hesab edilən ailə siyasətinin məzmunu "paternalist-konservativ" yönlü olub, ailəyə dövlətin ən həssas qayğı və münasibətinin reallaşdırılmasından ibarətdir.

❖ "Dövlət ailə məsələləri üzrə strategiya"nın hazırlanması gündəmdə duran ilk vəzifələrdəndir; yeni Milli Fəaliyyət Planı, "Azərbaycan ailəsi", "Güclü ailə - güclü dövlət" adlı dövlət proqramları hazırlanmalıdır.

❖ Yeni strateji sənədlərdə son 30 ildə demək olar ki, gözə çarpmayan mənəvi-ideoloji əsasların müəyyən edilməsi, ailə dəyərləri, onların formalaşdırılması, qorunması və möhkəmləndirilməsinin istiqamətləri əksini tapmalıdır. Ailə siyasətinin "defamilizasiya" (ailəyə dövlətin ən yüksək dəstəyi, ailədə körpə uşaqlar olduğu halda belə valideynlərə işləmək imkanının yaradılması, uşaqlara qulluğun "körpəlikdən məktəbyaşlı müddətə qədər" sistemli infrastrukturunun olması (Finlandiya və s.)) və "refamilizasiya" (ailə-iş balansını yaratmaqla, uşaqların sosial dəstək siyasətinin gücləndirilməsi, analıq məzuniyyətinin müddəti və ödənişinin çoxaldılması (İsveçrə, Yaponiya) və s.) istiqamətlərinin sintezi ola biləcək modelin seçilməsi müzakirə edilə bilər;

❖ Ailənin institusionallaşması, dövlət ailə siyasətinin uğurla həyata keçirilməsini təmin edən təşkilatların, ailə siyasətinin köməkçi subyektlərindən ibarət əlçatan infrastrukturunun yaradılması; "Azərbaycanın 2025-2050 Ailə Strategiyası"nın hazırlanması və həyata keçirilməsinə texniki, kadr və maddi dəstəyin təmin edilməsinin gündəmə salınması məqsədəuyğundur.

❖ Azərbaycanda oğlan uşaqlarının sayının çoxalması, əhalinin maskuliniazasiyası tendensiyasının nəticələrinin çox ağır olması və hətta ən optimist ssenariyə görə 2050-ci ilə qədər dəyişməsinin mümkün olmayacağı ilə bağlı xarici və yerli tədqiqatların tövsiyələri nəzərə alınaraq təcili xarakterli addımlar atılmalı, AQUPDK-nin nəzdində bu sahədə bütün prosesləri izləməyə və tənzimləməyə imkan verən Xüsusi Monitorinq Sisteminin yaradılması həyata keçirilməlidir.

❖ Dövlət ailə siyasətinin Azərbaycanın "ailə mərkəzli/ailəyə dost" ölkəyə çevrilməsi istiqamətində bu sahəyə - uşaqlarla bağlı ailəyə sosial dəstək tədbirlərinə yenidən baxılmalıdır;

❖ Azərbaycanda ailə siyasətinin büdcəsi yenidən nəzərdən keçirilməlidir. Çünki hazırkı zəif səviyyə qarşıdakı vəzifələri həll etmək iqtidarında deyil. Ailə büdcəsinin, büdcədənkənar fondların formalaşdırılmasında, habelə dövlət proqramlarının hazırlanmasında dövlət ailə siyasətinin vəzifələrinin nəzərə alınması zəruridir;

❖ Hazırkı situasiyada ailə məsələləri sahəsində dövlət siyasətini həyata keçirən rəsmi dövlət qurumunun - AQUPDK-nin səlahiyyətləri onun dönüş xarakterli qərarlar qəbul edilməsi sahəsində səlahiyyət, mexanizm və lazımi resurslara (70 əməkdaş) malik olmadığına dəlalət edir.

❖ Azərbaycan ailəsinin milli varlığımızın ən fundamental resursunun - genofondumuzun qarantı və sorumlusu olmasını nəzərə alaraq, bu sahədə dönüş yaradılması üçün "Ailə Məsələləri Nazirliyi"nin yaradılması vacibdir. Əks təqdirdə ailənin problemlər kompleksi-

nin həllinə olan ümidlərin doğrulması qeyri-mümkündür.

❖ Yəni qadınların rolunun artırılması və Konvensiyanın tam həyata keçirilməsi sahəsində səlahiyyətli milli mexanizm kimi effektiv fəaliyyətinin təkmilləşdirilməsi məqsədilə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsini tamhüquqlu nazirliyə çevirmək vasitəsilə onun potensialını gücləndirmək; dövlət orqanlarında fəaliyyət göstərən gender məsələləri üzrə əlaqələndirici şəxslər üçün dəqiq vəzifə tapşırıqları tərtib edib, onları müvafiq sayda insan, maliyyə və texniki resurslarla təmin etmək məqsədəuyğun olardı.

❖ Ailə siyasətini reallaşdıran infrastrukturun, qurumların institusionallaşması yönündə əsas və köməkçi təsisatların paytaxt və bölgələrdə yaradılması məqsədəuyğundur;

❖ Sorğuda boşanmaların səbəbi kimi "xəyanət" amilinin vurğulanması, həmçinin məişət zorakılığı və son dövrlərdə baş verən intihar hallarının nəzərə alınması Azərbaycanda ailələrə sosial-psixoloji xidmət sahəsində dönüş yaradan addımların atılmasını tələb edir. Ölkədə "Ailə psixoloqu" mütəxəssislərinin hazırlanmasını vacib məsələyə çevirir. Baş verən intihar hallarının qarşısının alınması, uşaqların psixi sağlamlığı, ailələrdə stressin idarə olunması, zorakılığın azaldılması və s. üzrə xüsusi proqramların təşkili ilə məşğul olan sosial işçilər, psixoloqlar korpusunun formalaşdırılması, ən qısa vaxtda kurslar təşkil edilərək, boşluğun aradan qaldırılması atılacaq ilk addımlar sırasında olmalıdır.

❖ Vətən müharibəsi nəticəsində şəhid, əlil və qazı ailələrinin psixoloji problemləri, PTSS-Post Travmatik Stress Sindromu aspektində çox ciddi məsələyə çevrilməsi də bu məsələni daha da aktuallaşdırıb.

❖ Sorğu gedişində hər 5 nəfərdən birinin ailədə aldatma, xəyanət və münaqişələrin qaçılmaz olduğu fikri ilə tam razılıq ifadə etməsi, ümumiyyətlə, ailələrdə psixoloji problemlər, intihar, tənhalıq və s. halların dünyada 2021-ci ilin aparıcı trendləri hesab edilməsi - ailələrin psixi sağlamlıq xidmətlərinin planlaşdırılması, təmin edilmə şəraiti və qiymətləndirilməsi prosesinə cəlb edilməsi, psixi sağlamlıq sahəsində çalışan sosial işçilər, təlimatçı və tədqiqatçıların hazırlanması dövlət ailə siyasətinin prioritetlərindən olmaldır.

❖ Respondentlərin mediasiya (məhkəmədən kənar barışıq) xidməti ilə bağlı 33.8%-nin müsbət gözləntiyə malik olması, AQUPDK-nin nəzdində dünyada geniş yayılan "Ailə mediasiyası" institutunun təsis edilməsini, ailə münaqişələrinin həlli mexanizmi kimi onun rolunun artırılmasını gündəmə daxil etməyi tələb edir.

❖ Sorğuda ailə məsələlərini tənzimləyən aidiyyəti qurumların olması ilə bağlı məlumatlılıq dərəcəsinin son dərəcə aşağı olması, respondentlərin əksəriyyətinin son 3 ildə ailə məsələləri ilə bağlı heç bir quruma müraciət etməməsi düşündürücü məqamdır. Bu göstəricilər ailələrin öz çoxsaylı problemləri ilə "baş-başa" qalmasına dəlalət edir.

## Ailənin rifahı, ailə yönümlü sosial siyasət sahəsində

❖ Ailənin rifahı, ailəyə dost sosial siyasətin həyata keçirilməsi dövlətimizin ailə sahəsində dönüş yarada biləcək tədbirlərini qiymətləndirmək üçün prioritet meyara çevrilməlidir.

❖ Ailə siyasətində ailənin sosial siyasətin subyekti kimi görülməsi modelindən ailə ilə dövlət arasında qarşılıqlı məsuliyyətin eyni dərəcədə bölüşdürüldüyü tərəfdaşlıq modelinə keçilməsi günün tələbidir.

❖ Ailə institutunun imici digər sahələrlə yanaşı, ailə siyasətinin həyata keçirilməsi nəticəsində formalaşır. Hazırda ailəyə dəstək siyasəti daha çox sosial müdafiəyə, o cümlədən yalnız risk qrupuna daxil olan ailələrin kateqoriyalarına istiqamətləndirilmiş minimum istiqamətə yönəldilib. Başqa sözlə deyilsə, Azərbaycanda ailə siyasətinin sosial, demoqrafik və s. istiqamətləri sanki yalnız bir istiqamətdə - ekzistensial siyasət (ən imkansızlara dəstək) istiqamətində mövcuddur. Qalan ailələr aidiyyəti və səlahiyyətli qurumların baxış bucağından kənarda qalıb.

❖ Selektiv abortların artma tendensiyasının qarşısının alınması üçün qız uşaqları olan ailələrlə bağlı əlavə sosial proqramların hazırlanması, doğulan qızlara görə müavinətin verilməsi

məqsədəuyğundur.

❖ Ölkədə əhalinin sosial-iqtisadi vəziyyəti ilə nəsilvermə xüsusiyyətləri arasında möhkəm əlaqələrin olduğunu nəzərə alaraq, ailə-uşaq imtiyazları və sosial yardım proqramlarının hazırlanması faydalı olar.

❖ Özəl sektorda "ailəyə dost" korporativ siyasətinin həyata keçirilməsi təşviq edilməlidir. Bu tərəfdaşlıq əlaqələrinin məzmunu dövlət və özəl sektoru, ictimai təşkilatları, vətəndaş cəmiyyətini, sosial-mədəni, dini-mənəvi profilli təsisatları özündə birləşdirən çoxşaxəli sosial platformada dövlət siyasətinin reallaşdırılmasına töhfə verən qarşılıqlı faydalı fəaliyyətdən ibarətdir.

❖ "Ailə-iş münasibətləri" balansının yaradılması üçün gəliri daha yaxşı əks etdirən yeni yoxsulluq-ehtiyac meyarının hazırlanması, uşaqlara qulluq sisteminin və infrastrukturunun genişlənməsi, əhatəliliyinin gücləndirilməsi diqqət mərkəzinə gətirilməlidir;

❖ Gənc ailələrə dövlət dəstəyi ya aşağı, ya da birdəfəlikdir. Uşağa qulluq, analıq məzuniyyətinin müddəti və ödənişinin artırılmasına ehtiyac var;

❖ "Sosial müavinət"in miqdarı qiymətlərin artmasına rəğmən sürətlə qiymətdən düşür, azalır. Bu o deməkdir ki, uşağın həyatı və inkişafının hər bir mərhələsi - uşaq bağçası, məktəb, idman, dərnəklər, kurslar, təlimlər, institut və s. tamamilə valideynlərin şəxsən həll etməli olduqları mürəkkəb problemə çevrilir. Bu şərtlər altında valideynlər uşaqların "problemlər və baş ağrısı" olduğunu düşünür, ailədə uşaq sayının azalması labüd olur.

❖ "Böyük Qayıdış" proqramı çərçivəsində gənc ailələrə dəstək tədbirlərinin həyata keçirilməsi, "Qarabağda Gənclər şəhərciyi"nin salınması məqsədəuyğun olardı. Gənclər üçün yeni iş yerlərinin açılması, evlərin inşası, pay torpaqlarının verilməsi onlara böyük stimul ola, viran qoyulmuş torpaqlara dirçəliş mühitini gətirə bilər.

❖ "Qarabağda Gənc Ailə" layihəsi, burada dövlət ailə və uşaq siyasəti ilə təfərrüatlı sosial dəstək proqramlarının tətbiqi azad edilmiş torpaqlarımıza gənclik nəfəsini, qurmaq əzmini gətirə və gələcəkdə demoqrafik problem gözləntisini birdəfəlik həll edə bilər. Bu, paytaxtda həddən artıq kəskinləşmiş demoqrafik sıxlığın seyrəlməsinin, sosial fonun gərginliyini azaltmağın, meqapolisdə sosial problemlərin siyasiləşdirmə cəhdlərinin qarşısını ala bilər.

❖ Gənc ailələrə dəstək siyasətinin ən mühüm istiqamətlərindən biri də ev, mənzil məsələsidir. Hazırda evsizlik səbəbindən ailə qura bilməyən gənclərin sayı həddən artıq çoxdur. Güzəştli mənzillərin əldə edilməsi şərtləri asanlaşdırılmalı, xüsusilə gənclər üçün əlçatan olmalıdır. Sosial evlər, ipoteka şərtləri hələlik çoxsaylı gənclərimizi əhatə edə bilmir. Onlar başqa ölkələrə üz tutmağa məcbur olur və beləliklə, maddi, fiziki potensialdan ölkəmiz məhrum olmuş olur.

❖ Uşaqlara görə müavinətin verilməsinin ictimai müzakirələr və ekspert dəyərləndirmələri nəticəsində həll edilməsi öz vaxtını gözləyən məsələlərdəndir. Elmi dəyərləndirmələrdə uşaqlara görə müavinətin verilməsinin lehinə olan mövqelər əksəriyyət təşkil edir. Uşaqlar üçün aylıq vahid müavinətin tənzimlənməsi və maliyyələşdirilməsi üçün Respublika Uşaq Fondunun yaradılması təklif edilir.

## Elmi, mədəni-ideoloji, media və informasiya siyasəti sahəsində

❖ Ailələrin sosial-iqtisadi vəziyyətini səciyyələndirən və ailə həyatının əsas tendensiyalarını təfərrüatlı əks etdirən data bazanın, statistik göstəricilər sisteminin təkmilləşdirilməsi, ailə siyasəti ilə məşğul olan mütəxəssislər korpusunun yetişdirilməsi üçün əlavə təhsilin təşkili zəruridir;

❖ Dövlət ailə siyasətinin həyata keçirilməsinin monitorinqi və proqnozlaşdırılması, əsas sahələr üzrə məlumatların toplanması və təhlili, icrasının səmərəliliyinin qiymətləndirilməsi daxil olmaqla informasiya dəstəyinin təmin edilməsi arzu olunandır;

❖ Ailə tədqiqatlarının aparıldığı "Azərbaycan Familistik Tədqiqatlar Elmi Mərkəzi"nin yaradılmasının gündəliyə salınması məqsədəuyğundur;

❖ Hazırda Azərbaycan Respublikasında qadın problemləri ilə məşğul olan 90-na yaxın QHT-nin olması qeyd edilir. Onların ailə tədqiqatları ilə bağlı birgə tədqiqat formatının yaradılması, fəallığının artırılması vacibdir;

❖ Ailə siyasəti ilə bağlı mənəvi-ideoloji və tərbiyə işində boşluqların aradan qaldırılması son illərdə dövlət başçısının proqram xarakterli çıxışlarında dəfələrlə vurğulanıb. Gənc oğlan və qızlarımızın hələ məktəb yaşlarından ziyanlı ideologiyalara cəlb edilməsi meyilləri güclənib, şəbəkələşmə miqyaslı hal alıb;

❖ Bölgələrin ərazi fərqliliyi, əhalinin milli və tarixi xüsusiyyətləri nəzərə alınmaqla müvafiq qurumlarda ailənin mövqeyinin ölçülə bilən və yoxlanıla bilən meyarlar və göstəricilər sisteminin formalaşdırılması və inkişafı məqsədəuyğundur;

❖ Bütün səviyyələrdə dövlət qurumları ilə vətəndaş cəmiyyəti arasında tərəfdaşlığın təşkil edilməsi zəruridir;

❖ Milli və mədəni xüsusiyyətlər və ənənələr nəzərə alınmaqla ailəyə sosial dəstək siyasətinin mütərəqqi xarici modellərinin tətbiqi arzu olunandır;

❖ Sosial-mədəni, karyera, uşaqların uğurları baxımından firavan ailələrin və ailə həyat tərzinin populyarlaşdırılmasına kifayət qədər diqqət verilmir.

❖ Sosial şəbəkələrin ailə dəyərlərinə mənfi təsirinin qarşısının alınması yönündə ailə dəyərlərini təbliğ edən şəbəkə hesablarının yaradılması və fəallığı diqqətdə saxlanılmalıdır. Şəbəkələr üzərindən qurulan tanışlıqların ailə strukturuna ciddi zərbə vurması, tanışlığın get-gedə sürətlə şəxsi münasibətlərə çevrilməsi və ailələrin dağılmasına səbəb olması ilə bağlı maarifçi tədbirlərin həyata keçirilməsi zəruridir.

Azərbaycan ailəsinin tarixən formalaşan, ən əhəmiyyətli xüsusiyyətlərini özündə cəmləşdirən, intellektual, humanist, uşaq mərkəzli, mənəvi tərbiyə, vətənpərvərlik, təhsil potensialını, ülvi xüsusiyyətlərini ifadə edən multimedia vasitələrinin təqdimatı, sosial çarxların hazırlanması, təbliği və təşviqi, uğur hekayələri, gənc ailələrin inkişaf nümunələri bu sıradadır.

❖ Azərbaycan ailəsinin imicini formalaşdırmaq yönündə sosial media texnologiyalarının inkişafı və tətbiq edilməsi mühüm vəzifədir. Sosial şəbəkələrdə alternativ hərəkatların yaradılmasına, qarşı tərəfin arqumentlərinin ifşa edilməsinə xüsusi önəm verilməlidir. Bu fəaliyyətin maliyyələşdirilməsi diqqət mərkəzində olmalıdır.

❖ Ailə dəyərlərinin aşılanmasında, uşaqların sosiallaşmasında ailələrin birgə keçirdiyi asudə vaxtın həlledici əhəmiyyət var. Asudə vaxtın təşkili ailələrin ünsiyyət, sosiallıq və s. keyfiyyətlərinə ən çox təsir edən sahədir. Bu baxımdan paytaxt və bölgələrdə “Ailə evləri"nin təsis edilməsi, burada çoxsaylı dərnəklərin, valideynlərlə birlikdə vaxt keçirməyə imkan verən festival və yarışların təşkili məqsədəuyğun olardı.

❖ Bir çox ölkələrdə ailə dəyərlərinin formalaşdırılması üçün təhsilin bütün pillələrində, məktəblərdə, liseylərdə, universitetlərdə “Ailəşünaslıq” kursu ya müstəqil, ya da sosial fənlərin tərkibində tədris edilir. Bu dərsliyin təcili hazırlanaraq tədris edilməsi də atılacaq addımlardan biridir. Necə adlanmasından asılı olmayaraq, ailə dəyərlərinin tədrisinin yaxın gələcəkdə məktəblərin təhsil proqramlarına daxil edilməsi taleyüklü məsələdir.

❖ Ailənin kollegial fenomen olmasını nəzərə alaraq, yalnız qadın, ana və qızların deyil, ataların və oğulların da fikir və baxışları nəzərə alınmalı, bir sıra ölkələrdə olduğu kimi, məsələn, “Atalar Şurası”nın, “Ata haqları” və s. vətəndaş cəmiyyəti qurumlarının yaradılması, paytaxt və regionlarda şəbəkə formasında təşkilatlanması feminizm dalğasını səngitmək, həm də ailə harmoniyasına xidmət etmək baxımından məqsədəuyğun olardı.

❖ Azərbaycanda ilk rəqəmsal kabel televiziyası operatoru olduğu bildirilən “Ailə TV” ya adını dəyişə, ya da müəyyən dəyişikliklərlə tamamilə Ailə Televiziyasına çevrilməsi ilə bağlı müzakirələr aparıla bilər.

❖ Dünyanın bir çox ölkələrinin özünün milli “Ailə Günü” var. Azərbaycanda yalnız “Beynəlxalq Ailə Günü” qeyd edilir. Bu, məqbul sayılan hal deyil. “Azərbaycan Ailəsi Günü”nün təsis edilməsi gündəliyə daxil edilməlidir.

❖ Polietnik, çoxkonfessiyalı ölkəmizdə müxtəlif xalqların “Azərbaycan ailəsi” kimi ortaq dəyərlərinin, uğurlarının təbliği diqqət mərkəzində olmalıdır.

❖ Həmçinin, ailə münasibətlərimizdə əksər dünya ölkələrində olan “Analar Günü” və “Atalar Günü"nün təsis edilməsi önəmlidir. ABŞ-da və dünyanın əksər ölkələrində artıq 100 ildən çoxdur ki, belə bayramlar qeyd edilir və böyük mənəvi-ideoloji əhəmiyyət daşıyır.

❖ Hazırkı reallıqda tarixi, mənəvi kökləri ailə dəyərlərimizə bağlı olmayan 8 Mart Qadınlar Gününün feminizm və cinsi azlıqların təbliği üçün fürsətə və vasitəyə çevrilməsi göz önündədir. Bunun qarşısı “Milli Ailə, Ata, Ana günləri"nin təsis və bayram edilməsi ilə alına bilər;

❖ Ölkədə ailə modeli və dəyərlərimizlə bağlı maarifləndirmə mərkəzlərinə çevrilən “Ailə Maarif Mərkəzləri"-nin yaradılması məqsədəuyğun olar. AQUPDK-nin “Ailə Akademiyası” adlı layihəsi davam etdirilə bilər.

❖ Son onilliklərdə hər bir dövlət strukturunda “gender məsələlərinə məsul şəxs”in təsis edilməsi məlumdur. Ailə məsələləri ilə bağlı da müvafiq addımın atılmasının zamanıdır. Mərkəzi və yerli icra strukturları ailə məsələlərinin yalnız qadın məsələsindən ibarət olmadığının fərqində olmalıdır.

❖ Məktəbəqədər müəssisələrin (körpələr evi-bağcalar) çatışmazlığı probleminin aradan qaldırılması ilə bağlı qısa zamanda addımların atılması “iş və ailə münasibətlərinin” balanslaşdırılmasına töhfə ola bilər;

❖ Mövcud proqramlar və konsepsiyalar çərçivəsində həyata keçirilən ailə obrazını formalaşdırmaq yönündə fəaliyyətlər bir neçə istiqamətdə birləşdirilə bilər:

*- Azərbaycanda paytaxt və bölgələr, ucqarlar da daxil olmaqla pozitiv imic, uğurlu ailə nümunələri, onların yaranma tarixləri ilə bağlı ardıcıl informasiya siyasətinin həyata keçirilməsi;*

*- ailələrə dövlət dəstəyinə dair proqramların nəticələri haqqında ətraflı maarifləndirmə tədbirlərinin təqdim edilməsi;*

*- nümunəvi ailələrin öz təcrübələrini cəmiyyətin digər üzvləri ilə bölüşməsini təbliğ edən media layihələrinin həyata keçirilməsi;*

*- qeyd edilənlər ailə həyat tərzini və dəyərlərini möhkəmləndirmək üçün gənc nəslin dünyagörüşünə tənzimləyici/idarəedici təsirlər sisteminin inkişaf etdirilməsinə ehtiyac yaradır. Bu aspektdə ailə qurmağa hazırlaşan və yeni ailə quran gənc nəsil üçün familistik mədəniyyətin inkişafı layihələrinin hazırlanması və reallaşdırılması məqsədəuyğundur;*

*- böyüyən gənc nəslin familistik kompetensiyalarının formalaşması yönündə "Ailə həyatının etikası və psixologiyası" kursunun tədrisi məqsədəuyğun olar;*

*- ABŞ-da hər il keçirilən "Ailə elmi festivalı" kimi ailə festivallarının keçirilməsi, ailə-nəsil şəcərəsi/ağacının öyrənilməsi kimi sinifdənkənar məşğələlərin tədrisi töhfə verə bilər;*

❖ Şəhid ailələrinin, valideynlərinin təbliği, etalon ailə missiya daşıyıcıları kimi təşviqi vacibdir;

❖ Ailə dəyərləri sırasında din amilinin mühüm çəkisi və yerini nəzərə alaraq, bu istiqamətdə proqram və tədbirlərin intensiv təbliği ziyanlı ideologiyalara qarşı əsaslı addım ola bilər;

❖ Sorğuda xarici təbliğatla yanaşı, yerli serialların, media və TV kanallarının ailə dəyərlərinə ziyanlı təsiri xüsusi vurğulanıb. Media siyasətində, həmçinin TV-lərdə, sənədli verilişlərdə, bədii filmlərdə ümumiyyətlə nümunəvi Azərbaycan ailə modeli təbliğ edilmir. Mediada ailəyönümlü informasiya siyasətinin həyata keçirilməsi tələb kimi qoyulmaldır.

❖ Hazırda internet və TV məkanının, veriliş, proqram və serialların dəyərlərimizə müsbət deyil, mənfi təsir göstərməsi ilə bağlı respondentlərin rəyini nəzərə alaraq, AQUPDK, Təhsil Nazirliyi və Mədəniyyət Nazirliyinin birgə intensiv layihələr həyata keçirilməsinə böyük ehtiyac var.

❖ Beynəlxalq əməkdaşlıq yönündə: 2024-cü ildə BMT tərəfindən təsis edilən “Beynəlxalq Ailə İli”nin 30-cu ildönümüdür (Thirtieth Anniversary of the International Year of the Family, 2024 (IYF+30). Yubiley çərçivəsində AQUPDK-nin Beynəlxalq Ailənin İnkişafı Federasiyası (International Federation for Family Development; BAİF-IFFD) ilə əməkdaşlıq etməsi və bundan Azərbaycan ailəsinin, dövlət siyasətimizin təbliği ilə bağlı platforma kimi istifadə etməsi faydalı olar.

# İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT VƏ İSTİNADLAR:


1. Prezident İlham Əliyevin Dünya dini liderlərinin II Sammitinin açılış mərasimində nitqi. - https://president.az/articles/34790/print

2. Mehriban Əliyeva. Ön söz. Azərbaycanın İnsan İnkişafı Hesabatı.// Azerbaijan Human Development Report. 2007, p. 4. - http://hdr.undp.org/sites/default/files/nhdr2007gendereng.pdf

3. "Azərbaycan Respublikasının gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" Qanunu. 2006, N. 150-IIIQ

4. "Azərbaycan Respublikasının regionlarında uşaq bağçalarının tikintisi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 12 fevral 2018-ci il tarixli, 3667 saylı sərəncamı

5. "Azərbaycanda gender bərabərliyi və gender münasibətləri: mövcud vəziyyət və imkanlar. Kişilərin gender bərabərliyinə münasibətinə dair tədqiqatın (IMAGES) nəticələri üzrə hesabat". UNFPA/AQUPDK, 2018. Bakı, Azərbaycan

6. Azərbaycan Respublikasında cinsi və reproduktiv sağlamlıq və hüquqlar üzrə saziş qurumlarının tövsiyələrinin icra vəziyyətinin qiymətləndirilməsi. UNFPA Azerbaijan, 2015

7. Azərbaycan Respublikasında illik qanunvericilik və dövlət siyasətinin gender aspektinin qiymətləndirilməsi üzrə hesabat, 2020

8. Azərbaycan Respublikasında psixi sağlamlıq sistemi haqqında Ümumdünya Səhiyyə Təşkilatının və AR Səhiyyə Nazirliyinin hesabatı. Bakı, 2007, 36 s.

9. Azərbaycan Respublikasının milli qanunvericilik və dövlət siyasətinin gender aspektinin qiymətləndirilməsi üzrə hesabat. /Xalisə Şahverdiyeva, Günel Mehdiyeva, Taliyə İbrahimova/, 2020.

10. Azərbaycanda ailə institutunun möhkəmləndirilməsi sahəsində mövcud vəziyyəti qiymətləndırmək məqsədilə keçirilən ekspert sorğusunun sərhi. Bakı, 2019 // https://www.himayadar.org/ekspertl-r-aras-nda-keciril-n-sosioloji-r-y-sor-usunun-s-rhi.html

11. Azərbaycanda doğulan uşaqların cins nisbətinin pozulmasına zəmin yaradan mexanizmlər: keyfiyyət və kəmiyyət əsaslı tədqiqat. UNFPA Azerbaijan, 2018

12. Azərbaycanda doğulanların cins nisbətinin müxtəlif ssenariləri. // https://www.nhc.no/en/growing-domestic-violence-endangers-womens-lives-in-azerbaijan/?fbclid= IwAR1sH7Usg2BV1x27CimKKa8dmHGIxS JSP55PMyl-8kcIO18A-oYdndlijakQ

13. Azərbaycanda gender-həssas Dayanıqlı İnkişaf Məqsədləri üzrə məlumatların (2008-2019-cu illər) toplanması və təhlili. Tədqiqat işi. Avropa İttifaqının maliyyələşdirdiyi, BMT-nin İnkişaf Proqramının qismən maliyyələşdirdiyi və icra etdiyi "Gender-həssas Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsində vətəndaş cəmiyyətinin rolunun artırılması" layihəsi. Bakı, 2019, 32 s.

14. Azərbaycanda özəl sektorda qadınlar: imkanlar və çətinliklər. UNFPA, UNDP, 2018

15. Azərbaycanda qadınların ədalət mühakiməsinə çıxışı üçün maneələr, hüquqi müdafiə vasitələri və ən yaxşı təcrübələr, 2017

16. Dəmirçiyeva M.D. Ailə hüquqlarının məhkəmə müdafiəsi (kazuslar). Bakı: Şərq-Qərb, 2012, 120 s.

17. Demoqrafik proqnozlar, 2014-2050: Azərbaycanda doğulan uşaqların cins nisbətinin müxtəlif ssenariləri. UNFPA Azerbaijan, 2018

18. Demoqrafiya və sağlamlıq sorğusu, 2013. İctimai Səhiyyə və İslahatlar Mərkəzi (İSİM), Səhiyyə Nazirliyi, Bakı, 2011.

19. Dövlət Statistika Komitəsinin metaməlumatları. // https://www.stat.gov.az/menu/7/

20. Əhalinin təbii artımına gender disproporsiyasının təsiri. /Elmi-Tədqiqat və Statistik İnnovasiyalar Mərkəzi. - http://etsim.az/az/research/15

21. Əlizadə H., Mahmudova R. Sosial pedaqogika. Bakı, 2014

22. Mehdiyev E. Azərbaycanda ailə dəyərləri. Bakı, 2018, 65 s.

23. Məmmədov R. Azərbaycan ailəsi: dünən və bu gün, sabah. Bakı, 2018

24. Oğlan uşaqlarına verilən üstünlüyün qarşısının alınması və qızların dəyəri-

nin təşviq edilməsi üzrə Qlobal Proqram: Cənubi Qafqaz və bir sıra Asiya ölkələrində doğulan uşaqlar arasında cins nisbətinin tənzimlənməsi. Azərbaycan üzrə Ölkə İcmalı. UNFPA, 2018.https://azerbaijan.unfpa.org/sites/default/files/pub-pdf/UNFPA_Azerbaijan_ country_profile_AZE.pdf

25. Quliyeva N. Azərbaycanda müasir kənd ailəsi. Bakı: Elm, 2005, 176 c.

26. Azerbaıjan country profıle. Global Programme to Prevent Son Preference and the Undervaluing of Girls: Improving the sex ratio at birth in select countries in Asia and the Caucasus Baku, 2018, 21 p.

27. Divorce Statistics You Can't Ignore: //https://financesonline.com /divorce-statistics/

28. Dominic Richardson. Key Findings on Families, Family Policy and the Sustainable Development Goals: Synthesis Report (Florence, Italy, UNICEF, 2018).

29. European Observatory on Homelessness (EOH), Family Homelessness in Europe: EOH Comparative Studies on Homelessness (Brussels, 2017).

30. Growing Domestic Violence Endangers Women's Lives in Azerbaijan /20.05.2021; // Gender Based Violence in Azerbaijan 2020.Norwegian Helsinki Committee 20-05-2021; Azerbaıjan Country Gender Assessment December 2019

31. Hortaçsu, Nuran, Sharon Ş. Baştuğ and Ovezdurdi B. Muhammetberdiev. 2001. Desire for Children in Turkmenistan and Azerbaijan Son Preference and Perceived Instrumentality for Value Satisfaction.

32. Jean Quinn. "The impact of personal and family circumstance on homelessness ", paper presented at the expert group meeting on affordable housing and social protection systems for all to address homelessness, Nairobi, 22–24 May 2019.

33. National Alliance to End Homelessness, State of Homelessness database, available at https://endhomelessness.org/homelessness-in-america/homelessness-statistics/state-ofhomelessness-report/ (accessed on 27 August 2019); and Quinn, "The impact of personal and family circumstance on homelessness"

34. Preventing More "Missing Girls". A Review of Policies to Tackle Son Preference. World Bank, 2018

35. Suzanne Speak. "The state of homelessness in developing countries", paper presented at the expert group meeting on affordable housing and social protection systems for all to address homelessness, Nairobi,  May 2019.

36. Szinovacz, M. (1984). Changing family roles and interactions. In M. E. Szinovacz (Ed.), Women and the family: Two decades of change. Haworth Press, 1984

37. The Child Protection System in Azerbaijan: Situation Analysis Available Resources, Referral Mechanisms, Gaps and Risks seen from a Child Rights Perspective.UNİSEF Azerbaijan, 2005, 51 p.

38. Trost J. LAT relationships now and in future. In: K. Matthijs (Ed.), The family: Contemporary perspectives and challenges. Leuven University Press,1998

39. UNICEF, "Family-friendly policies: redesigning the workplace of the future", policy brief, July 2019

40. United Nation. General Assembly Economic and Social Council. Seventy-fifth session. Implementation of the objectives of the International Year of the Family and its follow-up processes Report of the Secretary-General. Economic and Social Council Seventy-fifth session 2020 session /25 July 2019–22 July 2020// https://undocs.org/A/75/61%E2%80%93E/2020/4

41. UN-Women. HeForShe: 2019 Impact Report (New York, 2019). See also www.heforshe.org/en /movement.

42. Value Satisfaction. Journal of Cross-Cultural Psychology /32 (3): 309–21. // https://doi.org/10.1177/0022022101032003004.

43. Williams. J. (2000). Unbending gender: why family and work conflict and what to do about it. New York: Oxford University Press, 251 p.

44. Women In The Prıvate Sector In Azerbaıjan: Opportunıtıes And Challenges Gender Assessment Report. /Aysel Vazirova/. 2018, 64 p

45. Антонов А.И., Сорокин С.А. Судьба семьи в XX1 веке. − М.: «Грааль», 2000

46. Главная проблема семьи XXI века: отсутствие семьи. // https://regnum.

ru/news/society/2522716.html
47. Голод С. Современная семья: мачизм, феминизм, трибадизм // Человек, 2006, № 6, с. 69-81
48. Кузьменко Т. Прогноз семейно-демографической ситуации // Вестник Московского университета. Сер. 18, «Социология и политология», 2008, № 2, с.133-145.
49. Лактюхина Е.Г. Развод в молодых семьях в условиях трансформации ценностей: автореф. дис. ... канд. социол. наук. - Волгоград, 2013, 28 с.
50. Микросоциология семьи (методология исследования структур и процессов). М.: Издательский Дом «Nota Bene», 1998, 360 с.
51. Мустаева Ф. Социальные проблемы современной семьи. // Социологические исследования, 2009, №7, с.109-113
52. Носкова А. Эволюция семейной политики в Европе: меняющиеся проблемы, приоритеты и практики. // http://ehd.mgimo.ru/IORManagerMgimo/file?id=9cd9aeef-2bd4-63ad-dc3e-2411b91fe396
53. Рябова В.В.Трансформация функций семьи в современном российском обществе. // https://brstu.ru/static/unit/journal_2/docs/number-17/106-112.pdf
54. Семья как объект и предмет социологического анализа. // Известия Российского государственного педагогического университета им. А.И.Герцена. – № 132, 2011, с. 169–179
55. Формирование фамилистической культуры студентов педагогических вузов. 2008
56. Шилов И.Ю. Фамилистика (Психология и педагогика семьи). Практикум, 2012
57. Шубович М. Семейная педагогика в системе междисциплинарной интеграции гуманитарного знания. // https://core.ac.uk/download/ pdf/197369095.pdf
58. https://www.un.org/en/observances/international-day-of-families
59. 1st International Conference “Family-responsive policies in the Digital Era”// https://www.youtube.com /watch ?v=wA8IoSapyIE
60. https://www.pewresearch.org/social-trends/2019/11/06/marriage-and-cohabitation-in-the-u-s/
61. https://www.statista.com/chart/21655/share-of-children-living-with-single-parents-worldwide/
62. Ipsos MediaCT's syndicated LMX Family Study data.
63. https://www.slicktext.com/blog/2019/10/smartphone-addiction-statistics/
64. https://www.adb.org/sites/default/files/institutional-document/546166/azerbaijan-country-gender-assessment-2019.pdf; page 12
65. http://www.scfwca.gov.az/store/media/Komite_illik_Hesabat%20_2020.pdf
66. https://www.usnews.com/news/best-countries/azerbaijan
67. http://scfwca.gov.az/store/media/%C3%87oxu%C5%9Faql%C4%B1%20ail%C9%99l%C9%99rl%C9%99%20ba%C4%9Fl%C4%B1%20t%C9%99hlil..pdf
68. http://scfwca.gov.az/page/komitenin-esasnamesi
69. https://apa.az/az/xeber/sosial-xeberler/xeber_aile__qadin_ve_usaq_problemleri_uzre_elm_-303307

## QEYDLƏR

## QEYDLƏR

